Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

8-10
FEVRAL
2020-ci il
№ 23 (4154)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur


■ səh. 9 ■

# ƏLİYEV-PAŞİNYAN GÖRÜŞÜ GƏLƏN AY MÜNHEN KONFRANSINDA BAŞ TUTA BİLƏR...

ATƏT-in sədrindən Qarabağ probleminin həlli prosesi ilə bağlı diqqətçəkən açıqlama...
■ səh. 8 ■

Rusiya - NATO ali hərbi dialoqunun fasiləsiz Bakı platforması formalaşır...
■ səh. 3 ■

Ermənistan hakimiyyətində yeni qarşıdurma - Sarkisyan Paşinyanın iki qanununu Konstitusiya Məhkəməsinə göndərdi
■ səh. 6 ■

Paşinyan ən böyük düşmənlərindən birini referendumla məhv etmək mexanizmini işə saldı
■ səh. 8 ■

Əfsanəvi Nuru Paşanın Göyçaydakı abidəsi kimin hədəfinə gəlib...
■ səh. 11 ■

Maliyyə-bank sektorumuzda daha bir "baş-ayaq" proses - əməkhaqqı kartları artır, kredit kartları azalır, həm də əhali əmanətlərinin artdığı şəraitdə...
■ səh. 12 ■

Özəl bankların "cinayətkar" mövqeyi nəticəsində real sektorumuz xarici bankların əlinə keçə bilər
■ səh. 12 ■

Sabunçu dairəsində yol hərəkətinin iflic edilməsinin konkret müqəssirləri var
■ səh. 14 ■



■ səh. 6 ■

## Paşinyan AŞPA-nın gözü qarşısında Konstitusiya Məhkəməsini məhv edir, reaksiya çox yumşaqdır, oxşar fakt Azərbaycanda olsaydı...




AŞPA prezidentliyinə namizədlərin seçimini anti-Azərbaycan və antitürk dairələr aparır - Çavuşoğlunun yeganə nümunə olması çox şeylər deyir...
■ səh. 4 ■



Kamil Musavinin namizədliyinin ləğvi üçün əsaslar tam yetişib...
■ səh. 5 ■

Bəzi deputatlarla seçicilərin «vulqar haqq-hesab çəkməsi» gələn yeni deputatlara da yaxşı örnək ola bilər
■ səh. 4 ■

■ səh. 5 ■
Əhliman Əmiraslanovun təbliğat-təşviqat kampaniyası 65-ci dairə seçicilərinin akademikə kütləvi dəstəyilə yekunlaşdı



■ səh. 3 ■
AŞ PA dəyərlərə söykənən ilkin simasını necə itirir?




■ səh. 2 ■
Bəzi deputatlığa namizədlərin polis orqanlarına çağırıldığı barədə yalanları kim(lər) yayır...




■ səh. 7 ■
"AXC", ya "ADR" - tarix ədəbiyyatlarımızda ikitirəliyə kim son qoyacaq...



■ səh. 14 ■
BNA sədrinin dəqiq rəqəmləri - lakin hazırkı 25 min taksinin 16 mininin taleyi necə olacaq...



# Prezident İlham Əliyev Qəbələyə 8,9 milyon manat ayırdı



**Prezident İlham Əliyev Qəbələ rayonunun yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, iyirmi min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini rayon mərkəzindən və digər yaşayış məntəqələrindən ayıran, Bum-Tikanlı-Abrıx avtomobil yolunun 2-ci kilometrliyində Bum çayı üzərində yeni körpünün tikintisi və Bum qəsəbəsinə gedən 2 kilometrlik avtomobil yolunun bərpasının başa çatdırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,9 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**Sərəncama əsasən, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməlidir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.**

## İkili vətəndaşlığı olan şəxsin namizədliyi ləğv edildi

**Mərkəzi Seçki Komissiyasının fevralın 7-də keçirilən iclasında 86 saylı İsmayıllı seçki dairəsindən daxil olan müraciətə baxılıb.**



"Trend"in məlumatına görə, DSK-nın müraciətində deputatlığa namizəd Məzahir Şahvələdovun ikili vətəndaşlığa malik olduğu qeyd edilib.

Araşdırmalar nəticəsində müəyyən olunub ki, M.Şahvələdovun həm Azərbaycan, həm də Rusiya vətəndaşlığı var. İclasda M.Şahvələdovun namizədliyinin ləğv edilməsi təklif edilib. Təklif səsə qoyularaq qəbul edilib.

## Elşad Hacıyev Polis bölməsinə aparılan memara heç bir təzyiq edilmədiyini sübut etdi

**Memar Elçin Əliyevin polis tərəfindən nəzakətsiz rəftara məruz qalması ilə bağlı tirajladığı fikirlər onun subyektiv yanaşmasıdır.**



Bu barədə Bakı şəhər BPİ Mətbuat Xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev "Trend"ə bildirib ki, iddialarla bağlı müvafiq araşdırıma aparılıb. Xidmət rəisi qeyd edib ki, onun polis bölməsinə aparılması Səbail rayonu, Bayıl qəsəbəsində yerləşən, Qurban Abbasovun adını daşıyan küçədə yerləşən binalardan birinin sakinlərinin müraciəti əsasında olub:

"Qeyd olunan ünvanda çəkilişlərin aparılması sakinlərin narazılığına səbəb olub və heç bir rəsmi qurumun təmsilçisi kimi özünü təqdim etməyən Elçin Əliyevlə mübahisə yaranıb. Əraziyə yaxınlaşan polis əməkdaşları sakinləri sakitləşdirərək, şikayətçi olduqları şəxslə bağlı müvafiq araşdırmaların aparılması üçün onu Səbail RPİ 8-ci Polis Bölməsinə təhvil verilib. Qanunvericiliyə uyğun olaraq, onun şəxsiyyəti müəyyən olunub, sakinlərin narazılığına səbəb olan hallarla bağlı profilaktik söhbətlər aparılmaqla o sərbəst buraxılıb. E.Əliyev şikayətə rəvac verən əməlinin heç bir qanuni əsasının olmadığını bildirib.

Bölmədə onunla hər hansı nəzakətsiz rəftar, yaxud fiziki təzyiq faktı baş verməyib. Hər bir vətəndaş nəzərə almalıdır ki, hüquq həm də polis tərəfindən mühafizə olunan, hamı üçün məcburi normalar sistemidir.

Hər bir vətəndaşın qanun çərçivəsində polisə müraciət etmək hüququ var. Həmin hüquqlar üzrə mübahisə doğuran, vətəndaşları narahat edən hallar tərəfimizdən tam və hərtərəfli araşdırılır, qanunverciliyə uyğun müvafiq tədbir görülür".

**"Bakı-Xəbər" qəzetinin kollektivi qəzetin şair dostu Fəzail İsmayıl Böyükkişiyə dayısı Məsim Məsdər oğlunun vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

# Daxili İşlər naziri Vilayət Eyvazov Almaniyanın yeni səfirini qəbul etdi

**Fevralın 7-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Almaniya Federativ Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniqi qəbul edib.**

Avropalı diplomatı yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edən nazir V.Eyvazov ona fəaliyyətində uğurlar arzulayıb.

Dostluq və işgüzar şəraitdə keçən görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə edilib.



# Bəzi deputatlığa namizədlərin polis orqanlarına çağırıldığı barədə yalanları kim(lər) yayır...

**DİN Mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov son günlər bir sıra kütləvi informasiya vasitələrində parlament seçkilərinə qatılan bəzi namizədlərin polis orqanlarına çağırılması barədə məlumatlara aydınlıq gətirib.**

O deyib:"Bununla əlaqədar bildirirəm ki, həmin iddiaların heç bir əsası yoxdur və bu dezinformasiyadır. Polis seçkiqabağı təşviqat prosesinin gedişinə müdaxilə etmir və onunla da polisin siyasi fəaliyyətə müdaxiləsi qadağandır. Lakin ictimai qaydanı qorumaq, ictimai təhlükəsizliyi təmin etmək polisin əsas vəzifəsidir. Daha bir vəzifəsi - kütləvi tədbirlər zamanı asayişin mühafizəsini həyata keçirməkdir.

Ona görə də seçkiqabağı təşviqat prosesində ictimai qaydanı pozan hərəkətlərin qarşısı polis tərəfindən alınır və bu cür hallar üzrə araşdırma aparılır.

Yalnız qeyd etdiyim əməllərlə əlaqədar, eləcə də namizədin seçicilərlə görüşünə mane olma, təşviqat-nəşr materiallarını qəsdən məhv etmə kimi hüquqpozma



törətmiş şəxs polisə dəvət edilir, onunla profilaktik söhbətlər aparılır və ya məsələ qanunvericiliyə uyğun olaraq rəsmiləşdirilir, o cümlədən protokol tərtib edilir, yaxud araşdırmaların nəticələri üzrə digər qərarlar qəbul olunur.

Qanun pozuntuları ilə bağlı polisin səlahiyyətlərinə aid olan məlumat deputatlığa namizəd tərəfindən daxil olubsa, bu halda da araşdırma aparılaraq lazımi tədbirlər görülür və təşəbbüskar məlumatlandırılır.

# Rusiya - NATO ali hərbi dialoqunun fasiləsiz Bakı platforması formalaşır...

**Bakıda Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimovla NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Volters arasında görüş keçirilib. Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.**

Qeyd olunub ki, generallar strateji sabitlik, dünyanın böhranlı bölgələrindəki vəziyyət barədə fikir mübadiləsi aparıb, həmçinin, tərəflərin hərbi fəaliyyəti nəticəsində yaranan insidentlərin qarşısını almaq üçün atılan addımları müzakirə ediblər. Qeyd edək ki, artıq bu formatda keçirilən görüş neçənci dəfədir məhz Bakıda keçirilir və bu, artıq bir platforma halını alıb. Belə görüşlərin fasiləsiz olaraq Bakıda keçirilməsi nə ilə bağlıdır?

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin sədri Samir Adıgözəlli qəzetimizə bildirdi ki, Azərbaycan bir çox sahədə beynəlxalq əməkdaşlıq və dialoq platforması kimi özünü təsdiqləyib və artıq belə görüşlərin Bakıda keçirilməsi təəccüb doğurmur: "Şübhəsiz ki, Bakının növbəti dəfə qlobal güc mərkəzlərinin hərbi rəhbərliyinin görüşü üçün məkan kimi seçilməsinin başqa səbəbləri də var.

Bu, Azərbaycanın həm coğrafi mövqeyinə, həm də dövlətimizin yürütdüyü siyasətin prioritetlərinə görə Şərqlə Qərb arasında körpü rolunu oynamasıdır. Azərbaycan dövlətinin təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və nəqliyyat dəhlizləri layihələri ölkəmizin bu statusunu daha da möhkəmləndirib. Belə mühüm görüşlərin Bakıda keçirilməsinin əsas səbəblərindən biri Azərbaycan liderinin şəxsi nüfuzu və dövlətimizin regional və qlobal proseslərdə aktiv rol alması ilə bağlıdır. Digər tərəfdən, Azərbaycanın həm Rusiya, həm də NATO ilə normal əməkdaşlıq münasibətləri var. Ölkəmiz beynəlxalq sülhyaratma missiyalarında fəal iştirak edir və eyni zamanda, heç bir hərbi-siyasi blokun üzvlüyünə can atmır".

Ekspertin sözlərinə görə, Azərbaycan xarici siyasətinin dinamikası və yönü, prioritetləri, inteqrasiya istiqamətləri və qlobal layihələri Qərbə yönəlik müsbət mesajlar verməklə, Qafqazın bu ölkəsini hesablaşılan siyasi sabitlik vətəninə çevirib: "Bu, təkcə oynadığımız rolun siyasi tərəfi deyil, başqa sözlə,

***Samir Adıgözəlli:** "Dünyanın taleyi Bakıda həll edilir və bu, şübhəsiz ki, bizim möhtəşəm uğurdur"*



Avropada Rusiyanın qaz diplomatiyasına da alternativliyimizə görə əhəmiyyətimizdir, üstəgəl, Rusiya ilə qonşuyuq və regionun digər ölkələrindən olduqca sabitik. Rusiya tərəfinin Bakını seçməsi isə iki ölkə arasında yüksək münasibətlərdən qaynaqlanır və Moskva Bakıda coğrafi yaxınlığı faydaya çevirir. İki hərbi güc mərkəzi arasında dialoqlara dünyada baş verən toqquşma tendensiyaları şərait yaradır, qüvvələr balansının bölünməsi, siyasi və hərbi demarşların edilməsi, sadə ifadə etsək, dünyanın taleyi Bakıda həll edilir və bu, şübhəsiz ki, Bakının möhtəşəm uğurudur".

***Məhəmmədəli QƏRİBLİ***

# AŞ PA dəyərlərə söykənən ilkin simasını necə itirir?

**AŞ PA üzv ölkələrdə insan haqları və demokratiyanın vəziyyəti ilə bağlı zaman-zaman ayrıseçkilik və ikili standart mövqeyindən çıxış etməklə özünün beynəlxalq nüfuzunu sarsıdır və məlum səbəblər üzündən yaşadığı deqradasiyanı dərinləşdirir.**




***Aydın Quliyev:** "Prezident İlham Əliyev AŞ PA-ya yanlış yoldan dönmək üçün son şansı vermiş oldu"*

Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, üzv ölkələrin xalqları və hökumətləri Avropa Şurası strukturlarından obyektiv münasibət və əməli dəstək gözlədikləri halda, xüsusilə AŞ PA özünün bəyan etdiyi prinsip və dəyərlərindən sürətlə uzaqlaşır:"AŞ PA son həftələrdə Azərbaycanda media azadlığı və çoxdan qapanmış hesab edilən siyasi məhbuslar mövzusunu yenidən süni və qərəzli şəkildə gündəmə gətirməklə, dəyərlərə söykənən ilkin simasını nə qədər itirdiyini bir daha nümayiş etdirdi.

AŞ PA-nın, xüsusilə Azərbaycan və Türkiyəyə münasibətdə qeyri-obyektiv qərarlar çıxarması bu təşkilatın hansı qüvvələr tərəfindən idarə edildiyinə dair asanlıqla nəticə çıxarmağa əsas verir. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlunun AŞ PA-nın məlum siyasəti ilə bağlı müzakirələri bu təşkilat barədə neqativ rəylərin artıq beynəlxalq xarakter daşımağa başladığını əyani şəkildə göstərdi. İlham Əliyevlə Çavuşoğlunun eyni mövqe nümayiş etdirməsi AŞ PA-nın ikili standartlarının tək bir dövlətin yox, artıq müxtəlif dövlətlərin platformasına çevrildiyini göstərir. Hesab etmək olar ki, artıq AŞ PA daxilində onun ikili siyasətinə qarşı vahid dövlətlər platforması formalaşır. Azərbaycan və Türkiyə kimi Avropa üçün müstəsna vacib ölkələrin AŞ PA-nın siyasətinə əks mövqelər göstərməsi əsaslıdır, arqumentlidir və təsirlidir. Azərbaycanda siyasi məhbus mübahisələrinin qapanması bir sıra mötəbər instansiyalar tərəfindən təsdiqlənən fakt olsa da, AŞ PA-nın bu fakta başqa cür yanaşması onun doğru yolda olmadığını göstərir.

Azərbaycanla müqayisədə AŞ PA-nın Gürcüstan, Ermənistan, Ukrayna və Moldovaya münasibətində ayrıseçkiliyi özünü daha qabarıq biruzə verir. Ermənistanda alternativ siyasətlə məşğul olduqlarına görə sabiq dövlət xadimlərinin həbsinə, hətta siyasətçi və jurnalistin həbsdə ölməyinə göz yumması AŞ PA-nın, həqiqətən, öz prinsiplərinə dönük çıxmış qurum olduğunu göstərir. AŞ PA bu günədək Gürcüstanın sabiq prezidenti və Qərb prinsiplərinin tərəfdarı kimi tanınan Saakaşvilinin ölkədən məhz siyasi səbəblərə görə qaçqın salınmasına heç bir münasibət bildirməyib. Ukraynanın sabiq prezidenti Qərbpərəst Poroşenkoya qarşı yenə də siyasi motivlərlə cinayət işinin açılması sırf siyasi təqib nümunəsidir".

Baş redaktor bildirib ki, AŞ PA-nın tək Azərbaycanla Türkiyəni hədəfə alması onun digər ölkələrin problemlərini ört-basdır etmək niyyətlərinin əlamətləridir: "Azərbaycan cəmiyyətində AŞ PA-nın siyasətinə əks mövqenin güclənməsi tam əsaslı prosesdir. AŞ PA bir tərəfdən Azərbaycanı siyasi sifarişlə bəzi göstərilən ölkələrdən aşağı tutur, digər tərəfdən Azərbaycan xalqı qarşısında hələ 2001-ci ildə öz üzərinə götürdüyü öhdəlikləri nümayişkaranə şəkildə pozur və icra etmir. AŞ PA-nın Ermənistan kimi təcavüzkar ölkə qarşısında Azərbaycanı sifarişli siyasət qurbanına çevirməsi heç bir ədalətə və normativ prinsiplərə cavab vermir. AŞ PA-nın hazırkı yanaşması Azərbaycana böhtan atmaqdan başqa cür təhlil edilə bilməz.

Rusiyanın AŞ PA-dan çıxarılması və yenidən üzrxahlıqla qaytarılması bir daha göstərdi ki, bu təşkilat onun taleyini düşünən yox, başqa ölkələrdən qisas almaq istəyən qərəzli qüvvələrin təsiri altındadır. Azərbaycana qərəzli yanaşma da AŞ PA-nın məhz həmin siyasətinin təzahürüdür. Prezidentimiz üzv ölkələrə ayrıseçkiliklə yanaşan AŞ PA ilə bağlı Azərbaycanın yeni strategiyasını müəyyənləşdirdi və bu, cəmiyyətimiz tərəfindən tam anlayışla qarşılanır.

Azərbaycan xalqı AŞ PA-nın onu üzvlükdə qalıbqalmamaqla bağlı ciddi seçim qarşısında qoyduğuna indi həmişəkindən çox əmindir. Prezident İlham Əliyev AŞ PA-nın ikili standart siyasəti barədə əslində Azərbaycan xalqının daşıdığı ictimai rəyi ifadə etdi. Azərbaycan xalqının AŞ PA-dan üz döndərməsi bu təşkilatın beynəlxalq imicinə ən sarsıdıcı son zərbələrdən biri ola bilər. Əslində Prezident İlham Əliyev və Mövlud Çavuşoğlu iki xalqın ümumi rəyini açıq ifadə etməklə AŞ PA-ya yanlış yoldan dönmək üçün son şansı vermiş oldular".

# AŞPA prezidentliyinə namizədlərin seçimini anti-Azərbaycan və antitürk dairələr aparır - Çavuşoğlunun yeganə nümunə olması çox şeylər deyir...

**"Siz imkan vermirdiniz ki, bu təşkilat kiminsə əlində alətə çevrilsin". Bunu Prezident İlham Əliyev Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib.**

*"Belə siyasət qurum üçün yaxşı perspektiv vəd etmir"*

Ölkə başçısı AŞPA-nın fəaliyyətini tənqid edərək bir sıra məqamlara toxunub: "Siz Avropa Şurasında böyük vəzifəyə seçilmişdiniz, Avropa Şurası Parlament Assambleyasının prezidenti olmusunuz. Sizin dövrünüzdə bu təşkilatda ədalətli mövqe sərgilənirdi. Siz imkan vermirdiniz ki, bu təşkilat kiminsə əlində alətə çevrilsin. Siz çox dəyərli və müstəqil insan kimi bütün təzyiqlərə davam gətirirdiniz və müstəqil siyasət aparırdınız. Ona görə o dövrdə Avropa Şurası elə bil ki, öz əsl simasını bərpa edirdi. Ancaq bu gün bu təşkilat, əfsuslar olsun, bir daha demək istəyirəm ki, heç bir nüfuza malik deyil, onların qəbul etdiyi qərarlar bizim üçün tamamilə əhəmiyyətsizdir". Məlumat üçün qeyd edək ki, Mövlud Çavuşoğlu 2003-2014 illərdə AŞPA vitse-prezidenti olub. 2010-2012 illərdə AŞPA rəhbərliyinə seçilib və bu vəzifəyə yüksələn ilk türk parlament üzvü olub.

Həqiqətən də Çavuşoğlunun quruma rəhbərlik etdiyi dönəmdə AŞPA müəyyən pərdəarxası qüvvələrin əlində alət rolunu oynamırdı. Ondan sonrakı dövrlərdə isə vəziyyət dəyişdi. AŞPA rəhbərliyi müəyyən pərdəarxası dairələrin sifarişlərini yerinə yetirməyə başladı. Çünki həmin dairələr elə şəxsləri qurumun başına gətirdilər ki, onlar ancaq siyasi sifarişlərə uyğun hərəkət edirlər. Bir növ, AŞPA prezidentliyinə namizədlərin seçimi anti-Azərbaycan və antitürk dairələr tərəfindən aparılır. Bu da getdikcə AŞPA-nı hörmətdən salır, siyasi nüfuzunu heçə endirir.

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, AŞPA-nın müstəqil qurum kimi fəaliyyət göstərməsi müşahidə edilmir: "Qurum müəyyən dairələrin təsiri altındadır. Bunun nəticəsidir ki, AŞPA həm Azərbaycana, həm də Türkiyəyə

## **Fikrət Sadıqov:** *"AŞPA-ya indi rəhbərlik edənlər obyektivlik hissini itiriblər və onlara verilən tapşırıqları icra edirlər"*



qarşı ədalətsiz mövqe sərgiləyir. Müxtəlif qərəzli xarakterli qətnamələr qəbul edir. Açıq-aşkar ikili yanaşma sərgiləyir. Bu cür ədalətsiz yanaşmalar Avropada susqunluqla qarşılanır. Fransada nümayişçilərə xəsarət yetirilir, onlara qarşı cinayət işi açılır, AŞPA susur. Ermənistanda sayt rəhbəri həbsxanada dünyasını dəyişdi, keçmiş hakimiyyət mənsublarının bəziləri siyasi səbəbdən həbsdədir. Qurum bunları görməzdən gəlir. AŞPA-ya indi rəhbərlik edənlər obyektivlik hissini itiriblər və onlara verilən tapşırıqları icra edirlər. Çavuşoğlu isə quruma rəhbərlik edəndə buna imkan vermirdi. O, əlindən gələni edirdi ki, ədalətli yanaşma ortaya qoyulsun. Qurum simasını itirməsin. Ancaq ondan sonra AŞPA-ya rəhbərlik edənlər müəyyən qüvvələrin sifarişlərini yerinə yetirməyə başlayıblar. Bu isə əsl ədalətsizlikdir. Belə siyasət AŞPA üçün yaxşı perspektiv vəd etmir".

***Vidadi ORDAHALLI***

# Bəzi deputatlarla seçicilərin "vulqar haqq-hesab çəkməsi" gələn yeni deputatlara da yaxşı örnək ola bilər

**Son günlər sosial şəbəkələrdə Milli Məclisin deputatlarının seçiciləri ilə görüşləri zamanı baş verən qalmaqallar haqqında çoxsaylı videomaterial yayılıb. Bütün bu çəkilişlər görüş iştirakçısı olan vətəndaşlar tərəfindən aparılıb.**



Görünən odur ki, bəzi dairələrdə seçicilər deputatlığa namizədləri fitə basır, açıq-aşkar hörmətsizlik göstərir və onlara ciddi iradlar bildirirlər.

Xüsusən də əvvəl deputat olmuş bəzi namizədlər belə situasiyalarla üzləşirlər. Faktiki olaraq, əvvəlki çağırış parlamentin bir sıra deputatları belə vəziyyətə düşüblər. Nəticədə bəzi namizədlərin seçicilərlə görüşmək cəhdləri baş tutmayıb.

Bütün bunlar da səbəbsiz deyil. Məsələ ondadır ki, insanlar deputatların seçicilərin xahişlərinə məhəl qoymamasının, regionlara gəlməməsinin və sadə insanlar üçün heç nə etməməsinin səbəbləri ilə bağlı izahat tələb edirlər. İradlar yüksək səs tonu ilə bildirilir və bəzən bu, davaya qədər gedib çatır. Seçicilər

## **Məhərrəm Zülfüqarlı:** *"Bundan ciddi nəticə çıxarıb seçicilərlə işləyənlər də olacaq, əvvəlki kimi işinə laqeyd yanaşanlar da"*

deyirlər ki, yalnız seçkidən-seçkiyə onlar namizədlərin yadına düşürlər. Deputat seçiləndən sonra bəzi millət vəkilləri, ümumiyyətlə, dairələrə gedib seçiciləri narahat edən məsələlərlə maraqlanmır, vətəndaşların onlara ünvanladığı məktubları cavablandırmırlar. Bütün bunlar da növbəti seçki kampaniyasında belə gərginliklərin baş verməsinə gətirib çıxarır.

Maraqlıdır, yeni parlament formalaşandan sonra bir sıra deputatlar bundan ciddi nəticə çıxaracaqlarmı? Yəni belə hallar baş verməsin deyə, seçiciləri qayğılandıran məsələlərə diqqət ayıracaqlarmı?

*"Ona görə də deputat olacaq namizədlər öz məsuliyyətlərini dərk etməlidirlər"*

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, bu baxır deputatın fəaliyyətinə: "Bundan ciddi nəticə çıxarıb seçicilərlə işləyənlər də olacaq, əvvəlki kimi işinə laqeyd yanaşanlar da. Eləsi olacaq ki, işinə vicdanla yanaşacaq. Fikirləşəcək ki, seçicilərin etimadını doğrultmasa, onun da başına belə işlər gələ bilər. Demək ki, bu baş verənlər bütün deputatlar üçün ciddi dərs olacaq, bu doğru olmaz. Passiv deputatlar hər zaman olub. Baxmayaraq ki, bu, millət vəkilinin imici üçün yaxşı bir şey deyil. Deputat gərək öz işində məsuliyyətli olsun. Seçiciləri narahat edən məsələlərlə vaxtında maraqlansın. Belə olmadıqda bu onun əleyhinə işləyir və seçicilər arasında nüfuzunu itirməyə başlayır. Nəzərə almaq lazımdır ki, seçkinin özü siyasətdir. Cəmiyyətin idarə olunmasında iştirak etmək deməkdir. Bu il seçki dairələrində seçici fəallığı var. İndi seçicilər bir neçə il qabaq olduğu kimi, istənilən vədə inanmırlar. Ona görə də deputat olacaq namizədlər öz məsuliyyətlərini dərk etməlidirlər".

***Vidadi ORDAHALLI***

**Növbədənkənar parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən deputatlığa namizədi, akademik Əhliman Əmiraslanov seçiciləri ilə görüşləri yekunlaşdırıb.**

# Əhliman Əmiraslanovun təbliğat-təşviqat kampaniyası 65-ci dairə seçicilərinin akademikə kütləvi dəstəyilə yekunlaşdı









Görüşlər YAP Mərkəzi Seçki Qərargahının müvafiq rayon şöbələrində keçirilib.

Görüşlərdə Yeni Azərbaycan Partiyası tərəfindən 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən namizədliyi irəli sürülmüş akademik Əhliman Əmiraslanov çıxış edərək, Yeni Azərbaycan Partiyasının namizədi kimi seçki platforması və növbəti dəfə millət vəkili seçiləcəyi təqdirdə görəcəyi işlər barədə məlumat verib. Daha sonra ölkəmizdə həyata keçirilən siyasətin uğurlu nəticələrindən danışaraq, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin davam etdirdiyi siyasi kursun Azərbaycana cox böyük uğurlar qazandırdığını diqqətə çatdırıb. Namizəd xüsusi olaraq vurğulayıb: Ölkəmizin belə yüksək inkişaf tempi ilə irəliləməsində hakim Yeni Azərbaycan Partiyasının rolu danılmazdır. Ötən müddətdə mütəmadi olaraq seçicilərlə görüşlər keçirilib, onların qaldırdıqları məsələlər parlament tribunasından səsləndirilib, eləcə də həll edilməsi aidiyyati dövlət qurumlarına ünvanlanıb.

Dünyada, regionda gedən proseslər və bu proseslərdə Azərbaycanın yeri, xüsusilə son zamanlar Prezident İlham Əliyevin siyasi iradəsi ilə ölkədə aparılan kadr və struktur islahatları, bu islahatların əhəmiyyəti və Azərbaycan dövlətçiliyinin dayanaqlılığı, möhkəmləndirilməsində və xalqın maddi rifahının daha da yaxşılaşdırılmasında rolu danılmazdır. Biz inanırıq ki, dövlət başçısının həyata keçirdiyi siyasət nəticəsində torpaqlarımız tezliklə işğaldan azad olunacaq və uğur daim bizimlə olacaq".

**Görüşlərdə iştirak edən seçicilər artıq öz seçimlərini etdiklərini və fevralın 9-da seçki məntəqələrinə gedərək birmənalı olaraq Yeni Azərbaycan Partiyasının namizədini, hörmətli ziyalı, akademik Əhliman Tapdıq oğlu Əmiraslanovu dəstəkləyəcəklərini bildiriblər.**

**Xəbər verdiyimiz kimi, 60 saylı Salyan-Neftçala seçki dairəsindən deputatlığa namizəd Fəzail Ağamalı və rəqibi Kamil Musəvi arasında qalmaqal yaşanıb.**

# Kamil Musəvinin namizədliyinin ləğvi üçün əsaslar tam yetişib...




## ***Mehman Muradlı:** "Ola bilər ki, seçkilərdən sonra aparılacaq istintaqın nəticələrinə uyğun şəkildə qərar çıxarılsın"*

Fəzail Ağamalı baş verən hadisə ilə bağlı Baş prokuror Zakir Qaralova, Daxili İşlər naziri Vilayət Eyvazova, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Əli Nağıyevə, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova, 60 saylı Salyan-Neftçala Dairə Seçki Komissiyasının sədri F.Muradova və KİV-ə müraciət edib. F.Ağamalı hadisənin Salyan rayonunun Qarabağlı kəndində seçicilərlə keçirdiyi görüşü başa çatdırandan sonra baş verdiyini bildirib: "Deputatlığa namizəd Kamil Musəvi müxtəlif bölgələrdən gətirdiyi sərxoş və nəşəli insanlarla birlikdə aqressiv şəkildə üzərimə hücum etdilər. Söyüş və təhqiramiz davranışlarla mənə və tərəfdarlarıma fiziki təzyiq göstərdilər. Minik maşınıma əllərindəki küt alətlərlə zərbələr vurmağa başladılar".

Deputatlığa namizəd aidiyyəti orqanlardan məsələyə hüquqi qiymət verilməsini xahiş edib: "Əvvəlcədən təşkil olunan bu təxribat şəxsiyyətimi alçaltmaq və mənə fiziki xəsarət yetirmək məqsədi daşımış və ictimai təhlükəsizlik xarakteri almış, deputatlığa namizəd Kamil Musəvi tərəfindən hüquqlarım kobud şəkildə pozulmuşdur. Pozulmuş hüquqlarıma, məruz qaldığım mənəvi və fiziki hücumlara, şəxsiyyətimin təhqir olunmasına hüquqi qiymət verilməsini sizdən xahiş edirəm".

Qeyd edək ki, Salyanda baş verən hadisənin videosu sosial şəbəkələrdə yayılıb. Həmin videodan görünür ki, bir namizəd öz tərəfdarları ilə rəqibinin üstünə hucum çəkir, hətta onun avtomobilinə də zədələr vurulur. Analoji halla bağlı Kamil Musəvinin namizədliyi ləğv oluna bilərmi və bunun hansı hüquqi mexanizmləri var?

Azərbaycan Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Mehman Muradlı qəzetimizə bildirdi ki, həmin hadisə ilə bağlı videoya bir neçə dəfə baxıb: "Biz bir qədər standart seçki taktikalarına öyrəşmişik. Baş verən hadisədə ağır cinayət əməli yox idi. Ancaq qanun pozuntuları vardı. Bunun üçün də məsuliyyət nəzərdə tutulur, ancaq ola bilər ki, inzibati qaydada olsun. Çünki namizədə qarşı nalayiq hərəkətlər edilib, onun avtomobilinə ziyan vurulub. Mən mediadan tanış oldum ki, artıq Fəzail Ağamalı hüquq-mühafizə orqanlarına şikayət edib. Edilən istənilən şikayət araşdırılmalıdır. Bunun üçün vaxt amilinə də nəzər yetirməliyik. Ola bilər ki, kiminsə təqsirkar olması dərhal deyil, aparılan istintaq nəticəsində ortaya çıxa bilər. Bizdə seçki bazar günü keçiriləcək. Belə olan halda, namizədliyin ləğvi mümkün olmayacaq. Çünki artıq namizədlərin adları bülletenlərə salınıb. Ancaq qanunun tələblərində namizədliyin tez bir vaxtda ləğv edilməsi də var. Əgər həmin zaman hansısa bir ağır cinayət baş versəydi, prokurorluq dərhal namizədliyin ləğvi ilə bağlı Mərkəzi Seçki Komissiyasına müraciət edəcəkdi. Orda da təcili toplantı çağırılaraq namizədliyin ləğvi məsələsinə baxılacaqdı. Bundan sonra namizədliklə bağlı olan toxunulmazlıq da aradan götürülür və cinayət təqibi həyata keçirilə bilər. Hesab edirəm ki, Salyanda baş verən hadisədə belə hal müşahidə edilmədi. Ola bilər ki, seçkilərdən sonra aparılacaq istintaqın nəticələrinə uyğun şəkildə qərar çıxarılsın. Bir daha qeyd edirəm ki, namizədliyin dərhal ləğvi üçün ciddi zəmin yoxdur. Ancaq kifayət qədər qanun pozuntusu ilə müşayiət olunan bir hadisədir, ona da hüquqi qiymət veriləcək. Seçkinin təbliğat-təşviqat hissəsi üçün də qanunun tələbləri müəyyənləşib. Həmin proses də qanunun tələblərinə uyğun şəkildə aparılmalıdır. Qanunun tələblərinə kiminsə riayət etməməsi pozuntu sayılır və buna görə də, dərəcəsindən asılı olaraq, məsuliyyət müəyyənləşdirilib".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan AŞPA-nın gözü qarşısında Konstitusiya Məhkəməsini məhv edir, reaksiya çox yumşaqdır, oxşar fakt Azərbaycanda olsaydı...

**Avropa Şurası Parlament Assambleyası Monitorinq Komitəsinin Ermənistan üzrə həmməruzəçiləri Andrey Şircel (Sloveniya) və Kimmo Kilyuner (Fillandiya) Ermənistanda Konstitusiya Məhkəməsinin ləğvi istiqamətində atılan addımlara çox loyal bir münasibət ortaya qoyublar.**



## *Elşən Həsənov: "Artıq uzun illərdir AŞPA-nın tutduğu istiqamət onun qoyduğu prinsiplərə uyğun gəlmir"*

Onların bəyanatında bildirilir ki, Ermənistan hakimiyyətinin Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə xitam verilməsi ilə bağlı atdığı addımlar təqdir edilmir, bunun üçün Venesiya Komissiyasının rəyi alınmalıdır: "Ermənistan parlamenti Konstitusiya Məhkəməsinin fəaliyyətinə xitam verə bilmədiyi üçün, indi də həmin qərarın referendum vasitəsilə tətbiqinə nail olmaq istəyir. Konstitusiyaya bəzi düzəlişlərin edilməsini nəzərdə tutan referendumun keçirilməsində başlıca məqsəd Konstitusiya Məhkəməsinin üzvlərinin səlahiyyətinə xitam verilməsidir".

Həmməruzəçilər hesab edirlər ki, bu addımlar Ermənistandakı konstitusion institutların gələcək fəaliyyəti üçün təhlükə yarada bilər. Onlar referendumun keçirilməsinə də etiraz etmir, yalnız bildirirlər ki, bu məsələdə Venesiya Komissiyasının rəyinin alınması bütün tərəflərin mövqeyini əks etdirə bilər. Təbii ki, bu mövqe Ermənistanda baş verən hadisələrin fonunda olduqca loyaldır. Bənzər hadisə Azərbaycanda baş versəydi, AŞPA-nın mövqeyi necə olardı?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanda baş verən bütün bu hadisələr antidemokratikdir: "Paşinyan hakimiyyətə gələndən sonra atdığı bütün addımlar zorakılıqla müşahidə edilib. Yadınıza gəlirsə, o, Serj Sarkisyanın tərəfdarlarının çox olduğu parlamenti buraxa bilmirdi. Ancaq zorla da olsa bunu etdi. Yeni seçkilərdə Venesiya Komissiyasının rəyini, ümumiyyətlə, nəzərə almadı. Sonra başladı ölkədəki siyasi rəqiblərini bir-bir sıradan çıxarmağa. Hazırda onun əsas siyasi rəqibləri ya həbsdədir, ya da barələrində cinayət işləri açılıb. Ermənistandakı Konstitusiya Məhkəməsi Paşinyana müqavimət göstərən, onun sifarişlərini canla-başla yerinə yetirməyən son qalalardan biri sayılır. Həmin qurumun ayrı-ayrı üzvlərinə qarşı həyata keçirilən təqib kampaniyası, təzyiqlər nəticə vermədiyi üçün, indi qurumun üzvlərinin səlahiyyətlərinə xitam vermək qərarına gəliblər. Paşinyan guya bunu qanunla etmək istəyir. Parlamentdəki cəhdləri alınmadı. İndi də referendum təyin edib Konstitusiyanı dəyişmək istəyirlər ki, onlara mane olan baryerləri asanlıqla adlaya bilsinlər. AŞPA-nın məsələyə münasibəti çox loyaldır və proseslə adekvatlıq təşkil etmir. Burdan açıq görünür ki, onlar Ermənistana ərköyün uşaq münasibətini bəsləyirlər. Ermənistanda baş verən proseslər AŞPA-nın maraqlarına tamamilə ziddir. Ona çox sərt reaksiya olmalıydı".

Ekspertin sözlərinə görə, bənzər hadisə Azərbaycanda olsaydı, qurum çox fərqli mövqe sərgiləyərdi: "AŞPA-nın Azərbaycana münasibətdə qərəz siyasətini davam etdirməsinin əsasında ölkəmizin yürütdüyü müstəqil siyasət dayanır. İstər Azərbaycan, istərsə də quruma üzv olan digər dövlətə qarşı AŞPA tərəfindən sərgilənən münasibət heç bir halda həmin təşkilatın mövcud nizamnaməsi və əsasnaməsinə uyğun deyil. Bu təşkilatda bəziləri çalışırlar ki, ora üzv dövlətlər üzərində dominantlıq etsinlər. Əslində, qurumun missiyası, birinci növbədə, üzv dövlətlərin qanunvericilik bazasını bir-birinə yaxınlaşdırmaq, əməkdaşlığın daha da dərinləşdirilməsini təmin etməkdən ibarətdir. Bu, bir inteqrasiya modelidir. İnteqrasiya modeli isə onu tələb edir ki, dövlətlər arasında əməkdaşlıq münasibətlərinin normallaşması üçün müvafiq addımlar atılsın. Lakin heç bir halda bu, o anlama gəlmir ki, dövlətlərə qarşı hər hansı bir sanksiya təyin edilsin, hansısa bir məruzəçinin, maraqlı olan tərəfin, o cümlədən, erməni lobbisinin təsiri altında hansısa qərarlar qəbul edilsin və bu qərarlar fonunda da dövlətlərin müstəqillik hüququna təsir göstərməyə çalışsınlar. Bu baxımdan da AŞPA-nın artıq uzun illərdir tutduğu istiqamət onun qoyduğu prinsiplərə uyğun gəlmir. Nəticədə artıq ayrı-ayrı ölkələr mövcud prosesdən digərlərinə qarşı cəzaverici mexanizm kimi istifadə etməyə çalışırlar. Xüsusən də müstəqil siyasət yürüdən ölkələrə münasibətdə bu amil daha aydın özünü göstərir".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan hakimiyyətində yeni qarşıdurma - Sarkisyan Paşinyanın iki qanununu Konstitusiya Məhkəməsinə göndərdi

**Ermənistan Prezidenti Armen Sarkisyan ölkə parlamentinin qəbul etdiyi 2 qanun layihəsinə öz imzasını qoymaqdan imtina edib. Erməni mediasının məlumatına görə, Armen Sarkisyan "Bank sirri haqqında" və "Cinayət Məcəlləsinə dəyişikliklər haqqında" qanun layihələrini imzalamayıb və Konstitusiya Məhkəməsinə müraciət edib.**



## *Məhəmməd Əsədullazadə: "Prezident Armen Sarkisyan köhnə hakimiyyətin adamı olduğu üçün Paşinyanın dəyişikliklər islahatına mane olur"*

"Prezident bu qanunları imzalamayıb və həmin qanunların Konstitusiyaya uyğunluğunu müəyyən etmək üçün Konstitusiya Məhkəməsinə müraciət edib" - deyə Prezidentin administrasiyası rəsmi məlumat yayıb.

Görünən odur ki, Ermənistanda hakimiyyət dəyişikliyindən sonra müsbətə doğru hansısa yeniliklərin olacağına dair bütün ümidlərin artıq tam məhv olduğu üzə çıxır. Çünki bu ölkədə iqtisadiyyatdan tutmuş, siyasət və digər sahələrə qədər vəziyyətin daha sürətlə pisləşməsi özünü qabarıq göstərir. Belə durumda ən çox diqqəti cəlb edən məqamlardan biri də Ermənistanda Paşinyan və Konstitusiya Məhkəməsi ətrafındakı gərginliyin ən yüksək həddə çatmasıdır. Qeyd edək ki, tərəflər arasında münaqişə 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyindən sonra başlayıb. "Məxməri inqilab"dan sonra hakimiyyətə gələn Paşinyan Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanın açıq şəkildə keçmiş hərbi xuntaya bağlı olduğunu vurğulayaraq, inqilabdan sonrakı dövrdə onun ədalətli və qanuni qərarlar verməyə qadir olmadığını açıqlayıb. Lakin Baş nazir Tovmasyanı qanuni yolla vəzifəsindən uzaqlaşdırmağı qarşısına məqsəd qoysa da, hələ ki, buna nail ola bilmir. Bu arada Prezident A.Sarkisyanın məlum addımı hakimiyyət daxilində yeni qarşıdurmanın olmasından xəbər verir. Çox güman ki, Konstitusiya Məhkəməsinin çıxaracağı qərar Paşinyanın maraqlarına uyğun olmayacaq. Nəticədə Ermənistanda hakimiyyətdaxili qarşıdırma növbəti müstəvidə özünü göstərəcək.

*"Prezidentlə Baş nazir arasında qarşıdurmanın dərinləşəcəyi gözlənir"*

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər? Sarkisyanın məlum addımı hakimiyyətdaxili qarşıdurmanın yeni təzahürü sayıla bilərmi?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə bunu istisna etmədi: "Ermənistanda daxili siyasi situasiyada gərginliklər hökm sürür. Baş nazir Nikol Paşinyan çalışır ki, siyasi hakimiyyətini gücləndirsin. Bu istiqamətdə Cinayət Məcəlləsində və Konstitusiya Məhkəməsində dəyişikliklərə can atır. Prezident Armen Sarkisyan köhnə hakimiyyətin adamı olduğu üçün Paşinyanın dəyişikliklər islahatına mane olur. O baxımdan hesab edirəm ki, Prezidentlə Baş nazir arasında qarşıdurmanın dərinləşəcəyi gözlənir. Məhz Prezidentlə Baş nazir arasında bu konfliktin dərinləşəcəyi gözlənir. Nəticədə A.Sarkisyana yönəlik hücumlar artacaq. Nəzərə almaq lazımdır ki, ölkədə Prezident postu və Konstitusiya Məhkəməsi "Qarabağ klanı"nın nəzarətindədir. Paşinyan çalışır ki, Konstitusiyada dəyişikliklər etməklə, bir növ, bu postlardan əvvəlki klanın nümayəndələrini uzaqlaşdırsın. O üzdən, artıq problem dərinləşir və Paşinyana qarşı "Qarabağ klanı" cəbhə açır. Hesab edirəm ki, bu, ölkə daxilində yeni münaqişəyə gətirəcək və Ermənistanda siyasi böhran dərinləşəcək. Göründüyü kimi, Paşinyan öz hakimiyyətini gücləndirə bilmir".

***Vidadi ORDAHALLI***

**Tariximiz üçün çox mühüm olan elə hadisələr, quruluşlar var ki, onların adları bir deyil, bir neçə, ən azı iki variantda yazılır. Məsələn, XX əsrdə Azərbaycanın ilk müstəqil dövləti olan Azərbaycan Cümhuriyyətinin adını götürək.**

# "AXC", ya "ADR" - tarix ədəbiyyatlarımızda ikitirəliyə kim son qoyacaq...





***Vaqif Sultanlı:** "Azərbaycan Cümhuriyyətinin adı Azərbaycan Xalq Cümhuriyyəti olaraq qalmalıdır və bu şəkildə qeyd edilməlidir"*

***Boran Əziz:** "...Azərbaycan Xalq Cümhuriyyəti kimi işlənsə daha yaxşı olar"*

Tarix kitablarında, bədii-publisistik əsərlərdə, mətbuatda Azərbaycan Cümhuriyyətinin adı əsasən Azərbaycan Xalq Cümhuriyyəti (AXC), ya da Azərbaycan Demokratik Respublikası (ADR) olaraq yazılır. Məsələ burasındadır ki, AXC və ADR paralel işlədilir, hətta elə mətnlər olur ki, burada hər iki variant saxlanır. Bu da sözsüz ki, fikir ayrılıqları ilə yanaşı, ikitirəlik də yaradır.

Tarix kitablarında AXC ilə ADR-in paralel işlənməsi şagird və tələbələrin özlərində belə, çaşqınlıq yaradır. Hətta müəllimlərin özləri belə bu məsələdə çaş-baş qalırlar.

Mütəxəssislərin sözlərinə görə, tarixi ədəbiyyatda, KİV-də, bədii və publisistik əsərlərdə AXC, yaxud ADR-in adının əsas variant kimi saxlanması dəfələrlə müzakirə edilib. Ekspertlər bu çaşqınlığın, ikitirəliyin aradan qaldırılması üçün maarifçilik işlərinin aparılmasını da vacib sayırlar.

Professor Vaqif Sultanlı "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan Cümhuriyyətinin adının ADR deyil, AXC kimi saxlanılması, işlədilməsi, qeyd edilməsi daha düzgündür: "Əslində, 1918-ci ildə qurulan dövlətin adı Azərbaycan Cümhuriyyətidir. Əvvəllər onun adı "Xalq Cümhuriyyəti" deyil, Azərbaycan Cümhuriyyəti olub. Amma başlanğıcdan biz Azərbaycan Xalq Cümhuriyyəti yazdıq və o da artıq işləklik hüququ qazandı, dildən-dilə keçdi, indi onu dəyişdirmək olur. ADR isə rusdillilərin yazdıqları formadır. Amma dövlətin adı o cür olmayıb. Hazırda işlənən və qəbul edilən AXC-dir. ADR yazılması düzgün deyil, dövlətin adı AXC yazılmalıdır. Ancaq Məhəmməd Əmin Rəsulzadə bütün kitablarında "Azərbaycan Cümhuriyyəti" yazıb, pulun üstündə də "Azərbaycan Cümhuriyyəti" qeyd edilib".

V.Sultanlının sözlərinə görə, müstəqillik bəyannaməsi qəbul edilərkən orada qeyd edilib ki, Azərbaycan Cümhuriyyətinin şəkili-idarəsi Xalq Cümhuriyyətidir. "Amma bu, dövlətin Xalq Cümhuriyyəti olması anlamına gəlmir. Azərbaycan Cümhuriyyətinin adı Azərbaycan Xalq Cümhuriyyəti olaraq qalmalıdır və bu şəkildə qeyd edilməlidir " - deyə bildirən V.Sultanlı hesab edir ki, ADR sözü dərsliklərdən, digər ədəbiyyat növlərindən də yığışdırılmalıdır.

**Tarix üzrə fəlsəfə doktoru, Cümhuriyyət tarixçisi Boran Əziz də hesab edir ki, Azərbaycan Cümhuriyyətinin adı ADR kimi deyil, AXC kimi işlədilsə, daha məqsədəuyğun olar: "1918-ci ildə qurulan dövlətin adı bütün sənədlərdə Azərbaycan Cümhuriyyəti gedir. Amma rus dilinə sətri tərcümədə də o, ADR kimi səslənib. Ona görə də Azərbaycan Cümhuriyyəti, yaxud Azərbaycan Xalq Cümhuriyyəti kimi işlənsə daha yaxşı olar".**

*İradə SARIYEVA*

**Fevralın 7-də Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində "Könüllülər ili" və 2 fevral - Azərbaycan gəncləri günü münasibətilə 100-dən çox gənc əməkdaş və ictimai köməkçi - könüllülərlə görüş keçirilib.**

# "Könüllülər ili" çərçivəsində Baş Prokurorluqda gənclərlə görüş keçirildi



Görüşdə giriş nitqi ilə çıxış edən Baş prokurorun müavini Namiq Əsgərov diqqətə çatdırıb ki, ölkəmizdə həyata keçirilən sosialyönümlü dövlət siyasətinin və geniş islahatlar proqramının əhəmiyyətli nəticələrinin məntiqi davamı kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə "Könüllü fəaliyyət haqqında" Qanunun qəbulu, dövlət başçısının imzaladığı sərəncamlarla "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı və 2020-ci ilin respublikamızda "Könüllülər ili" elan edilməsi bir sıra orqan və təşkilatlarda, o cümlədən, hüquq-mühafizə orqanlarında, "ASAN Könüllüləri" şəbəkəsində könüllülərdən ibarət kollektivlərin formalaşdırılması gənclərin ictimai-siyasi fəaliyyətə cəlb edilməsi istiqamətində görülən əhəmiyyətli işlərin göstəricisi, ölkədə həyata keçirilən uğurlu gənclər siyasətinin təzahürü olub.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və şəxsən iştirakı ilə 1996-cı il fevralın 2-də keçirilmiş respublika gənclərinin ilk forumunu xatırladan Namiq Əsgərov ulu öndər tərəfindən imzalanmış qanun, fərman, sərəncam və dövlət proqramlarında gənclərə göstərilən xüsusi diqqət və qayğının yer aldığını bildirib.

Bu gün gənclər siyasətinin dövlətimizin başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gündəlik diqqəti və qayğısı sayəsində ölkəmizdə uğurla həyata keçirilən dövlət siyasətinin önəmli tərkib hissəsi olaraq dövlətin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrildiyini diqqətə çatdıran Baş prokurorun müavini gənclərin sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə daha fəal iştirakının təmin edildiyini, gənclərin potensialından daha geniş istifadə edilməsinin ölkəmizdə aparılan sosialyönümlü siyasətin prioritet istiqamətlərindən irəli gəldiyini vurğulayıb.

Xüsusi qeyd edilib ki, könüllülər hərəkati tam əksəriyyət etibarilə gənclərdən ibarət olmaqla, onlar öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə "Avroviziya" mahnı müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları və digər irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar.

Ölkəmizdə həyata keçirilən gənclər siyasətinin təzahürlərindən biri də gənclərin dövlət orqanlarına işə qəbulunun müsabiqə yolu ilə tam aşkarlıq şəraitində şəffaf prosedurlarla aparılmasıdır. Prezident cənab İlham Əliyevin qarşımızda müəyyənləşdirdiyi, prokurorluq orqanlarında dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik gənclər hesabına yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması məsələlərinə xüsusi diqqət yetirilməklə 2002-ci ildən başlayaraq Dövlət İmtahan Mərkəzi ilə əlaqəli şəkildə, tam aşkarlıq şəraitində şəffaf prosedurlar əsasında, dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları və beynəlxalq təşkilatlar, eləcə də kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə keçirilmiş 20 müsabiqə nəticəsində işə qəbul olunmuş 902 gənc hüquqşünas hazırda prokurorluq işçilərinin 70 faizini təşkil edir, onların bir çoxu yuxarı təsnifat vəzifələrə irəli çəkilib, o cümlədən, 22 nəfəri ilk dəfə olaraq müstəqil rayon, şəhər və ərazi hərbi prokuroru vəzifələrinə təyin ediliblər.

Bildirilib ki, son dövrlər Azərbaycan gənclərinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirməsi, könüllülər hərəkatının ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirakı istiqamətində aparılan islahatların prokurorluqda da davamlılığının təmin olunması məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən 6 fevral 2019-cu il tarixdə təsdiq edilmiş "Azərbaycan Respublikasının prokurorluq orqanlarında ictimai köməkçilərin fəaliyyəti haqqında" təlimata əsasən, hüquqşünaslıq ixtisası üzrə ali təhsil müəssisələrində təhsil alan gənclər institusional bacarıqlarının artırılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili üçün prokurorluq orqanlarının fəaliyyətinə ictimai köməkçi qismində könüllü olaraq cəlb ediliblər.

Təlimata müvafiq olaraq ötən dövr ərzində hüquqşünaslıq ixtisası üzrə ali təhsil müəssisələrində bakalavriatın ikinci kursunu bitirmiş və magistratura səviyyəsində təhsil alan 187 gənc müvafiq qaydada ərizə ilə Baş Prokurorluğa müraciət edərək ictimai köməkçi olmaq istəyini bildirib və onlardan 162 nəfəri Baş Prokurorluğun ayrı-ayrı idarələrində, Respublika Hərbi Prokurorluğunda, Bakı şəhər, digər şəhər və rayon prokurorluqlarında fəaliyyətə buraxılıblar.

Tədbirdə Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı Əmir Əliyev, "ASAN Könüllüləri" İctimai Birliyinin sədri Səbinə Cabarova, Gənclər Fondunun icraçı direktorunun müavini Qədir Xəlilov, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun rəhbəri Rauf Zeyni, "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev çıxış edərək ölkəmizdə dövlət gənclər siyasətinə uyğun olaraq həyata keçirilən köklü islahatlar, könüllülər üçün yaradılan geniş imkanlar, könüllülük hərəkatının daha da inkişaf etdirilməsi məqsədilə görülən işlər barədə ətraflı məlumat vermiş, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Çıxış edən könüllülər - Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin magistr pilləsinin II kurs tələbəsi Erkin Musayev, Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin IV kurs tələbəsi Aygün Hacıyeva və digər gənclər tədris müddətində bir çox biliklərə yiyələndiklərini, təhsil aldıqları müəssisələrdə hüquq sahəsi üzrə öyrəndikləri nəzəri bilikləri praktiki işdə həyata keçirmək şansı əldə etdiklərini və gələcək fəaliyyətlərində bu təcrübələrdən istifadə edəcəklərini bildiriblər.

Görüşə yekun vuran Baş prokurorun müavini gənclərə zəruri təcrübə toplamaları, milli və vətənpərvərlik ruhunda tərbiyə almaları, xalqa və dövlətə bağlılığı, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlət idarəçiliyində şəffaflığın və vətəndaş məmnunluğunun artırılmasında, ictimai nəzarətin həyata keçirilməsində yaxından iştirak etmələri barədə tövsiyələr verib, onları Gənclər Günü münasibətilə bir daha təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

***Baki-xeber.com***

# ATƏT-in sədrindən Qarabağ probleminin həlli prosesi ilə bağlı diqqətçəkən açıqlama...

**ATƏT-in fəaliyyətdə olan sədri, Albaniyanın Baş naziri Edi Rama BMT Təhlükəsizlik Şurasının iclasında çıxışı zamanı təşkilat məkanındakı həlli uzanmış münaqişələrdən danışıb. BMT-nin saytında verilən xəbərdə bildirilir ki, Dağlıq Qarabağ münaqişəsindən söz açan ATƏT sədri bu istiqamətdə müəyyən irəliləyişin olduğunu deyib:**




"Biz, həmçinin, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin səylərini dəstəkləyirik. Ötən həftə vasitəçilərin himayəsi altında Cenevrədə keçirilən danışıqlarda əhalini sülhə hazırlamaq üçün mümkün addımlar, eləcə də Dağlıq Qarabağ münaqişəsinin həllində əsas rol oynaya biləcək prinsiplər və elementlər müzakirə edilib".

Xatırladaq ki, bu il ATƏT-ə Albaniya sədrlik edir. ATƏT-in bu ölkədən olan fəaliyyətdə olan sədrinin belə nikbin danışmasını nə dərəcədə əsaslı saymaq olar?

Politoloq Qabil Hüseynlinin fikrincə, həlli uzadılmış bir çox münaqişənin tənzimlənməsi prosesi ATƏT-in mandatı altında həyata keçirilir:

## *Qabil Hüseynli: "Təzyiqlərin nəticəsidir ki, Paşinyan əvvəlkilərdən fərqlənən populist çıxışlarına bəraət qazandırmağa çalışır"*

"Dağlıq Qarabağ da onun kimidir. Bu baxımdan ATƏT sədri konkret bir fakta əsaslanmasa bunları söyləməz. Cenevrə görüşü əvvəlki görüşlərdən fərqləndi. Əvvəl erməni XİN rəhbəri ordanburdan danışırdısa, bu dəfə münaqişə, onun həlli perspektivləri haqda müzakirə aparıldı. Üstəlik, Minsk Qrupu həmsədrlərinin müzakirələrə qatılması danışıqları predmetli etdi. Artıq erməni nazirin nazı ilə oynamırlar və görünür ki, sülhyaratma prosesinin əsas istiqamətləri müəyyənləşdirilib. Bu onu göstərir ki, ermənilərə beynəlxalq hüquq normaları, öhdəlikləri nəzərlərinə çatdırılıb. Onlara izah edilir ki, Ermənistan tərəfindən münaqişənin provokasion yolla uzadılması bumeranq effekti verə bilər. Paşinyanın çıxışı və Mnatsakanyanın hərəkətləri də göstərir ki, danışıqlarda canlanma yaranıb. Tezliklə nazirlərin yenidən görüşməsi razılaşdırılıb. Deməli, danışıqlar prosesində müəyyən dönüş ola bilər və əvvəlkindən fərqlənəcək. Eyni zamanda, ATƏT-in Minsk Qrupu Paşinyana təzyiqlər edir. Təzyiqlərin nəticəsidir ki, Paşinyan əvvəlkilərdən fərqlənən populist çıxışlarına bəraət qazandırmağa çalışır. Paşinyan indi ortaya atıb ki, Sarkisyanın dövründə 7 rayonun qaytarılması və Laçın dəhlizinin saxlanması razılığı olub. Guya ki, Qarabağın statusu məcburi köçkünlər qaytarıldıqdan sonra referendumla həll ediləcəkmiş. Həmçinin, bölgəyə beynəlxalq sülhməramlı qüvvələrin yeridilməsini bəyan edir. Ad çəkilməsə də, Rusiyanın qüvvələri deyil, regiona qonşu olmayan ölkələrin sülhməramlı qüvvələrindən təşkil olunmalıdır. Paşinyan elektoratına müraciətlə deyir ki, guya Sərkisyan və komandası belə ciddi "güzəştlərə" gedib və siyasi manevr imkanları məhdududur. Paşinyan yenə siyasətçi kimi danışmır və dünyanın hansı qanunlarla idarə edildiyini nəzərə almadan erməni xislətinə uyğun çıxışlar edir, guya daha yaxşı həll variantı təklifi irəli sürür. Bütün bunlar danışıqlar prosesində bir tərpənişin olduğuna işarədir".

***Məhəmmədəli QƏRİBLİ***

---

# Paşinyan ən böyük düşmənlərindən birini referendumla məhv etmək mexanizmini işə saldı

**Ermənistanda hökumətin qanunsuz və siyasi motivli həbslərə geniş rəvac verməsi birmənalı həqiqətdir. Bununla bağlı Ermənistanın söz azadlığının qorunması Komitəsinin sədri Aşot Melkonyan bildirir ki, Nikol Paşinyan hökuməti üçün münasib olmayan şəxslər belə təqiblərə məruz qalır.**



Eyni zamanda, Melkonyanın sözlərinə görə, "məxməri inqilab"dan sonra siyasi qərarla həyata keçirilən həbslər ölkədə söz və ifadə azadlığının pozulmasıdır, çünki hökumət yadfikirli insanlara qarşı hədsiz dözümsüzlük nümayiş etdirir. O qeyd edir ki, Paşinyan hökuməti özünə rəqib hesab etdiyi yüksək vəzifəli şəxs, Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan və onun ailə üzvlərinə qarşı siyasi təqibi də davam etdirir.

Xatırladaq ki, hakim "Mənim addımım"ın parlament fraksiyası Hrayr Tovmasyanın səlahiyyətlərinə xitam vermək istiqamətində prosesə başlayıb. Buna səbəb olaraq Tovmasyanın vəzifəsində pozuntulara yol verməsi və səlahiyyətlərindən sui-istifadə etməsi göstərilir. Qeyd edək ki, Konstitusiya Məhkəməsi Ermənistanın hazırda həbsdə olan keçmiş prezidenti Robert Köçəryanın sərbəst buraxılması barədə qərar qəbul etmişdi. Bunlar fonunda artıq məlumdur ki, Ermənistan parlamentinin növbədənkənar iclasında Konstitusiya Məhkəməsinin sədri və üzvlərinin erkən istefasına dair referendum keçiriləcəyi haqda qanun layihəsi təsdiqlənib. Parlament sədri Ararat Mirzoyan qərarın 88 lehinə səslə qəbul olunduğunu açıqlayıb. Layihəyə görə, Konstitusiyaya düzəlişlərin qəbul edildiyi 2015-ci ildən əvvəl təyin edilmiş Konstitusiya Məhkəməsinin sədri və üzvlərinin səlahiyyətlərinə xitam verilməklə, onların yerinə, qanuna görə, ölkə prezidenti, Nazirlər Kabineti, hakimlərin ümumi yığıncağı tərəfindən təqdim edilənlər təyin olunur. Yeni düzəliş Paşinyanla Konstitusiya Məhkəməsinin sədri arasında düşmənçiliklə bağlıdır. Paşinyan Hrayr Tovmasyanın vəzifəyə saxtakarlıqla gəldiyini dəfələrlə bildirmişdi. Tovmasyan isə bunu siyasi təzyiq olaraq səciyyələndirib. Bunlar ölkə prezidenti tərəfindən də mənfi qarşılanır. Elə bu səbəbdən Nikol Paşinyanla prezident Armen Sarkisyanın son görüşü kifayət qədər gərgin atmosferdə keçib. Sarkisyan Paşinyana deyib: "Mən belə bir antikonstitusion qanunu ratifikasiya etməyə hazır deyiləm, gələcəkdə problemlər ola bilər".

Yeri gəlmişkən, məlumata görə, beynəlxalq təşkilatlar hökumətə xəbərdarlıq edib ki, dayanmaq lazımdır. Ermənistan parlamentinin sabiq vitse-spikeri Eduard Şarmazanov qeyd edib ki, indiki hakimiyyətin öz mövqeyi ilə razı olmayan insanları təqib etməsi Stalin repressiyası dövründə Yaqoda, Yejov və Beriyanın əməllərinə bənzəyir. O əlavə edib ki, erməni müxalifəti "37-ci il hadisələrinin təkrar olunmaması üçün əlindən gələni edəcək". Sabiq ədliyyə naziri Arpine Ovannisyan isə bildirib ki, Paşinyan hakimiyyəti hüquq-mühafizə orqanlarını "qırmızı xətti" keçməyə və özünə sərf etməyən fikirlər səsləndirən insanları təqib etməyə məcbur edir. Onun sözlərinə görə, iqtidar öz hərəkətləri ilə insan ləyaqəti prinsipini ayaqlar altına atır.

Xatırladaq ki, Paşinyan hökumətinin təzyiqi ilə Ermənistan prokurorluğu Hrayr Tovmasyanın və ailə üzvlərinin əmlakını da siyahıya alıb. Bu durumda Ermənistanın "İrates" nəşri yazır ki, Paşinyanın addımları hüquq-mühafizə orqanlarını da narazı salır:"Ermənistan polis rəisinin vəzifəsini müvəqqəti icra edən Arman Sarkisyan tərəfindən Paşinyanın onu polis rəisi təyin etməsi üçün əlindən gələni etdiyi barədə sistem daxilində də danışılır. Amma baş nazir bunu etmədiyindən polis rəisi müxalifətə meyllənir. Arman Sarkisyan daha əvvəl, hətta silahlı şəxslə danışıqlara getdi, hətta ordu günündə işləyib, Paşinyana acı sözlər deyənləri saxlayıb öz maşını ilə polisə gətirdi, bütün bunlar indi cavabsız qalmalı deyil ki?

Ancaq bütün bunlar onun üçün vəzifə almağın "qiymət"i olsa da, adi polis işçiləri üçün bu çoxdan xoşagəlməz və qəbuledilməz olub. Məlumata görə, Ermənistan hüqu- mühafizə orqanları yuxarıdan verilən məntiqsiz təlimatlardan inciməyə başlayıb, amma bütün hakimiyyətlər dövründə olduğu kimi, yenə də öz "xaçlarını" səssiz daşımağa məcburdurlar. Lakin eyni zamanda onlar da başa düşür ki, xalqın nəzərində polis sistemini yavaş-yavaş gözdən salmağa çalışırlar. Bu günlərdə sistemdəki bir çox insan, əsassız təlimatlara görə hərəkətlərinin nəinki qanun normalarına uyğun olmadığını, həm də çox vaxt gülməli olduqlarını görür və dərk edirlər. Ancaq bütün bunlardan əlavə, polisləri başqa bir şey daha çox narahat edir.

Mənbəmizin dediyinə görə, hüquq-mühafizə orqanları, müxalifətin aktiv hərəkətləri ilə paralel olaraq, Paşinyanın "qaralar və şeytanların" tutulması əmrinin yanında çox yumşaq görünəcək göstəriş verə biləcəyini proqnozlaşdırır. Hüquq mühafizəçiləri "müxaliflərin aktiv siyasi mübarizəyə başladığı zaman" sabahkı sərəncamın nə olacağını təxmin etməkdə belə çətinlik çəkirlər". Qeyd olunur ki, bu durumda hüquq-mühafizə orqanlarının müxalifətlə birləşməsi mümkündür. Çünki onlar Tovmasyanın taleyini yaşamaq istəmirlər.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Əliyev-Paşinyan görüşü gələn ay Münhen konfransında baş tuta bilər...

## *Cenevrə danışıqları Ermənistanda isterika yaradıb*

**Dağlıq Qarabağ münaqişəsinin sülh müstəvisində çözümü istiqamətində Cenevrədə baş tutan məlum danışıqlardan sonra prosesin hansı istiqamətdə cərəyan edəcəyi barədə müxtəlif fikirlər səslənir. Azərbaycan məsələyə kifayət qədər təmkinli yanaşsa da, Ermənistanda böyük hay-küy qopub.**

Burada səslənən fikirlərdən bəlli olur ki, danışıqlarda Azərbaycan kifayət qədər üstün bir mövqedədir. Ermənistan parlamentinin sabiq deputatı Ruben Hakobyan bunu ölkə hakimiyyətinin siyasəti ilə izah edir: "Baş nazir Nikol Paşinyana Qarabağ və Qarabağ münaqişəsinin nizama salınması barədə heç nə danışmamağı məsləhət görürəm, çünki onun dediyi hər şey erməni tərəfinə ziyan vurur".

Onun sözlərinə görə, Paşinyanın ziddiyətli bəyanatlarından sonra Ermənistan Xarici İşlər Nazirliyi hər zaman özünü doğrultmaq məcburiyyətində qalır: "Bu həm "Qarabağ Ermənistandır, vəssalam", həm də "Danışıqlar aparılmayıb" bəyanatı ilə əlaqəlidir, ATƏT-in Minsk Qrupu həmsədrləri, Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin son birgə bəyanatı razılaşmaların olduğu barədə danışır, bu isə o deməkdir ki, danışıqlar da olub". Siyasətçinin sözlərinə görə, danışıqlarda yeni bir gündəlik təqdim olunmursa, deməli, masa üzərindəki əvvəlki gündəlik müzakirə olunur: "Yəni bir neçə dəfə Azərbaycan tərəfinin irəli sürdüyü gündəliyi müzakirə etmək imkanı olub". Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru David Şahnazaryanın fikirləri olduqca maraq doğurur. O bildirir ki, Qarabağ münaqişəsinə dair danışıqlarda ərazilərin geri qaytarılması ilk günlərdən müzakirə olunur. Əks halda, yəni belə məsələ müzakirə olunmasaydı, Azərbaycan danışıqlar masasına da oturmazdı. Ekspert əlavə edib ki, Bakı Cenevrədə ötən həftə aparılan iki günlük danışıqlardan və Bratislava danışıqlarından məmnundur.

Qeyd edək ki, David Şahnazaryan hazırda Nikol Paşinyanın Qarabağ məsələsində əsas opponentlərindən biridir. İndiki Ermənistan hökuməti ətraf rayonların heç birinin qaytarılmayacağı haqda mesajlar versə də, o əmindir ki, Paşinyan "torpaqları qaytarmağa" hazırlaşır. Bu günlərdə Şahnazaryan Cenevrədə xarici işlər nazirləri arasında danışıqlarda "Şuşanın məsələsinin müzakirə olunduğunu" iddia etmişdi və bildirmişdi ki, Dağlıq Qarabağda azərbaycanlılarla ermənilərin birgə yaşadığı zonanın yaradılması da gündəmdədir. Şahnazaryan bildirir ki, Ermənistan tam təcrid olunub: "Minsk Qrupunun həmsədrləri və Bakı bir tərəfdədir, İrəvan digər tərəfdə. Və günahkar dövlət biz olacağıq, bütün bunları törədən isə Nikol Paşinyandır".

"Adekvat" partiyasının həmtəsisçisi Artur Danielyan da eyni mövqeni bölüşür:"Paşinyan deyəndə ki, Qarabağ danışıqların tərəfinə çevrilsin, məhz Azərbaycan icması nəzərdə tutulurdu. Güman edilir ki, münaqişənin həlli "torpaqların təslim edilməsi" kimi görünməyəcək, ancaq həmin ərazilərdə əvvəllər oradan qaçmaq məcburiyyətində qalmış insanlar məskunlaşacaq, sülhməramlılar isə onların təhlükəsizliyini təmin edəcək. Beləliklə, baş nazir Azərbaycana və beynəlxalq ictimaiyyətə istədiklərini verəcək. Bundan əlavə, hər şey ediləcək ki, Qarabağdakı cəmiyyət daima nəyə görəsə didişsin və bu "nəyə görənin" əhəmiyyəti yoxdur ".

Ermənistanın birinci ombudsmanı, hüquq müdafiəçisi Larisa Alaverdyan da bildirir ki, Qarabağın nizama salınması ətrafında aparılan danışıqlar uzun müddətdir yalnız "Madrid prinsipləri" ətrafında davam edir və hələlik başqa sənədlər yoxdur: "Qarabağ problemi ilə bağlı keçmiş səlahiyyətlilərin mirasını müəyyən formada təqdim etmək cəhdi hazırkı hakim qüvvə tərəfindən gələcək bəzi fəaliyyətləri əsaslandırmaq cəhdi kimi nəzərdən keçirilə bilər".

İndilikdə, danışıqların atmosferindən də göründüyü kimi, Cenevrədə münaqişənin həlli ilə bağlı hansısa ümidverici nəticə ola bilər. Bu, Dağlıq Qarabağda mövcud status-kvonun dəyişməsnin başlanğıcı ola bilər. Görüş münaqişənin həllində indilikdə bir rol oynamır, lakin Azərbaycanın qazanclı çıxması ilə nəticələndiyini deyə bilərik. Təbii ki, münaqişə ədalətli şəkildə həll olunmadığı təqdirdə belə qazanclar kiçik görünür. Amma bu qazancın mürəkkəb diplomatik müharibədə önə keçmək olduğu da diqqətdən yayınmamalıdır. Böyük Britaniyanın "Conciliation Resources" təşkilatının Cənubi Qafqaz proqramının direktoru, politoloq Lourens Broers də bunu istisna etmir. Həmsədrlərin Cenevrədəki görüşdən sonra verdiyi açıqlamanı təhlil edən ekspert bldirir:"Açıqlama mənə maraqlı göründü. Orada danışıqların intensivliyi və əsaslılığı vurğulanır ki, bu da Serj Sarkisyanın prezidentliyi dövründə Ermənistan və Azərbaycan liderlərinin görüşlərindən sonra verilən açıqlamalardan çox fərqlidir. Digər tərəfdən, Cenevrə danışıqlarından sonra verilən bir açıqlama sülh prosesindəki şiddətin səviyyəsini göstərir. Tərəflər xalqları sülhə hazırlamaq barədə razılığa gəlsələr də, artıq bir ildir ki, bu istiqamətdə xüsusi səy görmədik. İstisna, bütün ön xətt boyunca gərginliyin azalmasıdır. Münaqişənin sülh yolu ilə həlli üçün mövcud fikirlərin tənqidini də görürük, amma yeniləri hələ təklif olunmur. Bəyanatda münaqişənin dinc yolla nizamlanmasının element və prinsiplərindən danışılması sevindirici haldır. Amma bu yalnız əvvəllər tərəflərin razılaşdırdığı bütün humanitar tədbirlər ardıcıl olaraq həyata keçirildiyi təqdirdə vacib olacaq. Həmsədrlərin Cenevrədəki görüşdən sonra verdiyi açıqlamanı təhlil etsək, bu barədə nə demək olar? Bölgədə sülhə ümid bəsləmək olarmı?"

İndiki vəziyyətdə 14-16 fevral tarixlərində Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin görüşü də istisna edilmir. Gözlənir ki, burada İrəvan və Bakı həll prinsiplərini, gələcək bir müqavilənin çərçivəsini və kompromis tapmaq yollarını müzakirə edə bilər. Əks təqdirdə məsələnin hərbi həlli ehtimalı artır. Düzdür, vasitəçilər yeni savaşın alovlanmasını istəmir, odur ki, prosesi "ölü nöqtə"dən tərpətməyə çalışırlar. Lakin bunun mümkün olması üçün Ermənistanın danışıqlarda səmimi və konstruktiv olması vacibdir. Ümumiyyətlə, Paşinyanın hakimiyyətə gələndən sonra münaqişənin nizamlanması istiqamətində bir müsbət addım belə atmadığı məlumdur. İndi bu davam edərsə, yeni Qarabağ savaşı qaçılmaz sayılır. Bunun qarşısı yalnız Ermənistana qarşı konkret təzyiqlərin işə salınması ilə alına bilər.

Hazırda isə Qarabağ danışıqları, yuxarıda qeyd ounduğu kimi, "Madrid prinsipləri" əsasında aparılır. ATƏT-in Minsk Qrupu həmsədrlərinin 2007-ci ildə Madriddə irəli sürdüyü prinsiplər Dağlıq Qarabağ ətrafında olan rayonların mərhələlərlə Azərbaycanın nəzarətinə qaytarılması şərtilə bölgənin yekun statusunun müəyyənləşməsini nəzərdə tutur. Araşdırmaçılar belə hesab edirlər ki, danışıqların effekt verməsi üçün Ermənistan öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmağa başlamalıdır. Həmsədrlər bu prosesi davam etdirmək istəyirsə, Ermənistana təzyiq etməlidir. Ermənistan öz mövqeyindən geri çəkilməsə danışıqların heç bir perspektivi olmayacaq. Almaniyalı siyasi analitik Uve Halbax bu fonda vasitəçilrin fəal olmasının vacibliyni bildirib. Ekspert Cenevrə görüşünün mühüm yeniliklərə rəvac verə biləcəyini bu fonda istisna etmir. O qeyd edib ki, görüşdən sonra yayılan bütün bəyanatlar bunun sübutudur:

"Yayılmış çoxtərəfli mətn yaxşı hazırlanıb və tərəflər üçün olduqca təhlükəsizdir. Yəni belə bir təəssürat var ki, Azərbaycanın diplomatik maraqları kontekstində vacib məsələlər müzakirə olunur və Ermənistanın maraqları kontekstində gələcək nizamlanma prinsipləri, elementləri, humanitar gündəm barədə söhbət gedir"

Rus siyasi analitik Aleksey Malaşenkonun sözlərinə görə, bənzər görüşlərin davamlılığından, rəsmi bəyanatların məzmunundan asılı olmayaraq, artıq 25 ildən çoxdur davam edən mürəkkəb münaqişə var:"Tərəflərin nizamlanmaya və ya nizamlanmanın hər hansı paketinə yaxınlaşdığını dəqiq demək çətindir. Diplomatiya tərəflərin, həmsədr ölkələrin bu və ya digər mərhələdə münaqişə zonasında vəziyyəti dəyişmək üçün hər hansı istəyə malik olmayaraq istifadə etdiyi gözəl vasitədir. Növbəti görüşdə nə olacağını güman edə bilmərik. Amma nəticə olmasa, savaş qaçılmazdır. Azərbaycan buna hazır olsa da, Ermənistan haqda eyni şeyləri deyə bilmərik". Hesab olunur ki, bütün bunlardan Ermənistan müvafiq nəticə çıxarmağı bacarmlıdır. Əks təqdirdə bu nəticəni ona savaşla başa salmaq lazım gələcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# İlk Cümhuriyyət dövründə Ermənistan üçün qoparılmış torpaqlarımız...

***Faiq Ələkbərli:** "O dövrdə Ararat Respublikasının İrəvan dairəsinə aid olan 9 min kvadratkilometr hesabına yaradılmasının səbəbi Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin heç bir real gücünün olmaması idi"*

**Azərbaycanın tarixi torpaqları üzərində qurulan indiki Ermənistan Respublikasının əsasını qoyanların əsas məqsədi bizim torpaqlarımız üzərindən başlayaraq "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək idi. Lakin erməni ideoloqlarının bu xəstə xəyalı gerçəkləşmədi, gerçəkləşə də bilməzdi.**

## I yazı

"Böyük Ermənistan"ın yaradılması yalnız Azərbaycan, bütövlükdə isə Cənubi Qafqaz üçün deyil, bütün dünya üçün böyük təhlükədən başqa bir şey deyildi.

Məlum olduğu kimi, hələ keçən əsrin əvvəllərində ermənilərin Qafqazda respublika, torpaq, ərazi sahibi olması üçün onların xaricdəki ağaları böyük canfəşanlıqlar edir, hansı yolla olursa-olsun erməniləri Azərbaycan torpaqlarında yerləşdirib, onlar üçün bizim ərazilərimizdə dövlət qurmaqdan ötrü əllərindən gələni edirdilər. Gənc Azərbaycan Xalq Cümhuriyyətinə bir çox Avropa dövlətinin təzyiqləri nəticəsində ermənilər Azərbaycan torpaqlarına sahib oldular.

Məlum olduğu kimi, 1918-ci il mayın 28-də Gürcüstanın paytaxtı Tiflis şəhərində Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul olundu. Tarixçilər qeyd edirlər ki, dövlət müstəqilliyimizin Tiflisdə elan edilməsinin əsas siyasi səbəbi ölkənin paytaxtı Bakı şəhərinin başda Stepan Şaumyan olmaqla cinayətkar bolşevik rejiminin əlində olması idi. 1918-ci il sentyabrın 15-də Bakı düşmənlərdən təmizləndi və həmin ayın 17-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkənin müvəqqəti paytaxtı Gəncədən Bakıya köçdü. Qeyd etmək lazımdır ki, Cənubi Qafqazda Seym buraxıldıqdan sonra yeni yaranmış dövlətlərin sərhədlərini müəyyən etmək zərurəti yarandı. İlk günlərdə erməni nümayəndələri İrəvan şəhərinin Ermənistanın paytaxtı elan edilməsi barədə Azərbaycan hökumətinə müraciət etdilər. Batumi şəhərində 1918-ci il mayın 29-da keçirilən danışıqlarda Azərbaycan tərəfi İrəvan şəhərinin, eləcə də Eçmiədzin qəzasının Ermənistana verilməsi qərarı ilə razılaşdı. Bu qərarın bağışlanmaz bir səhv olduğunu açıq söyləyən İrəvan quberniyasından Milli Şuraya seçilmiş üç deputatın- M.H.Seyidov, N.Nərimanbəyov və R.Bağırovun yazılı etirazlarına baxmayaraq, məsələ Milli Şuranın mayın 29-da keçirilən üçüncü iclasında da müzakirə edilmədi. Ermənilər İrəvanı ələ keçirdikdən sonra Azərbaycana qarşı ərazi iddialarının coğrafiyasını zaman-zaman genişləndirməyə başladılar. Azərbaycan Milli Şurasının atdığı bu addım nəticədə Azərbaycanın tarixi torpağı İrəvan xanlığının Göyçə mahalının qərb hissəsinin, faktiki olaraq, əldən çıxmasına səbəb oldu. Azərbaycanın qərb sərhədləri Göyçə gölü ilə məhdudlaşdı və bu göl iki respublika - Azərbaycan və Ermənistan arasında sərhəd ərazisinə çevrildi. Gölün şərq hissəsi "Göyçə dairəsi" statusu ilə Azərbaycan Xalq Cümhuriyyətinin tərkibində qaldı. Onun ərazisi əsrin ilk illərindəki Yeni Bəyazid qəzasının şərq torpaqlarını əhatə edirdi və Göyçə gölünün şimalındakı Maralicə dağının qərbindən başlayaraq gölün şərq tərəfi ilə cənuba doğru uzanır və Maraldağın qərbinə çatırdı.

Ermənistan hökuməti əldə etdiyi güzəştə (İrəvana yiyələnməsinə) baxmayaraq, Azərbaycana təcavüzünü gücləndirir və yeni əraziləri - Zəngəzuru, Qarabağı, Naxçıvanı ələ keçirməyə cəhd göstərirdi.

Tarixçilər qeyd edirlər ki, 1918-ci il mayın 29-da İrəvan şəhərinin siyasi mərkəz kimi ermənilərə verilməsi ilə bağlı keçirilən iclasa Həsən bəy Ağayev sədrlik edirdi. İclasda F.Xoyski, M.Cəfərov, M.Hacınski, A.Mahmudbəyov, F.Köçərlinski, Məlik Yeqanov, R.Vəkilov, H.Şahtaxtinski, A.Axundov, M.K.Məmmədbəyov, X.Məlik-Aslanov, C.Hacınski, C.A.Ağamalov, Şərifov iştirak edirdilər.

Fətəli xan Xoyski iclasın açılışında Azərbaycan və Ermənistan sərhədləri haqda Ermənistan Milli Şurası ilə aparılan danışıqların nəticələrini elan edib. Məruzəsinin sonunda bildirib ki, Ermənistan Federasiyasının yaradılması üçün siyasi mərkəz lazımdır. İsgəndəriyyə şəhərinin Türkiyəyə birləşdirilməsindən sonra Ermənistan üçün siyasi mərkəz yalnız İrəvan ola bilər. Buna görə də İrəvanın ermənilərə güzəştə gedilməsi labüddür.

Daha sonra X.Xasməmmədov, M.Y.Cəfərov, Ə.Şeyxülislamov və M.Məhərrəmov məsələ ilə bağlı çıxış edərək bildiriblər ki, İrəvanın ermənilərə güzəştə gedilməsi tarixi zərurət olsa da, bizim üçün qaçılmaz, acı bir həqiqətdir.

Daha sonra məsələ ilə bağlı səsvermə keçirilib. Milli Şuranın 28 üzvündən 16-sı İrəvanın güzəşt edilməsinin lehinə, 1 nəfər əleyhinə səs verib, 3 nəfər isə bitərəf qalıb, digərləri səsverməyə qatılmayıblar.

Daha sonra isə ermənilərlə konfederasiya yaradılması məsələsi müzakirə olunub. Qısa fikir mübadiləsindən sonra məsələ səsverməyə qoyulub. Səsvermədə iştirak edən hər kəs Azərbaycan və Ermənistan konfederasiyasının yaradılmasının lehinə səs verib. Fətəli xan Xoyski Teymur bəy Makinskinin müştərək yolla şuraya qoşulmasını səsverməyə qoyub və bu təklif yekdilliklə qəbul olunub.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Baş naziri Fətəli xan Xoyski mayın 29-da Xarici İşlər naziri Məmməd Həsən Hacınskiyə yazırdı: "Biz ermənilərlə bütün mübahisələrə son qoyduq, onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik".

Lakin Milli Şuranın iyunun 1-də keçirilən iclasında həmin məsələyə yenidən baxılaraq, bu qərara protest elan edildi. Onu şuranın İrəvandan olan 3 üzvü imzalamışdı. Milli Şura protesti müzakirə olunmadan iclas protokoluna əlavə etməyi qərara aldı.

İrəvanın ermənilərə güzəşt olunması haqqında qərarın qəbul edilməsi, onun əsaslandırılması üçün gətirilən bütün dəlillərə baxmayaraq, siyasi cəhətdən tamamilə səhv addım idi. Erməni hökuməti Tiflisdən İrəvana köçdükdən sonra İrəvanda və Azərbaycanın digər tarixi torpaqlarında azərbaycanlılara qarşı soyqırım törətdi. İrəvan azərbaycanlıları həm daşnak (1918-20), həm də Sovet (1920-91) hökumətinin məqsədyönlü qırğın və deportasiya siyasətinə məruz qaldılar, İrəvanda azərbaycanlılara məxsus maddi mədəniyyət abidələri dağıdıldı, onların erməniləşdirilməsi tədbirləri həyata keçirildi.

Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, AXC dövründə Azərbaycan torpaqlarının ermənilərə verilməsinin bir neçə səbəbi var. "Birincisi, Azərbaycan Xalq Cümhuriyyəti Tiflisdə elan olunanda onun nə bir əsgəri, nə də bir polisi vardı. Faktiki olaraq, AXC-nin heç bir hərbi qüvvəsi yox idi. Fətəli xan Xoylu (Xoyski) ilk Baş nazir olarkən parlamentdəki çıxışında deyirdi ki, biz dövlət quranda heç bir qüvvəmiz yox idi: "Ona görə də hətta biz Osmanlı Türkiyəsindən hərbi yardım istəmək məcburiyyətində qaldıq. O dövrdə də Azərbaycan Cümhuriyyətinə yeganə yardım edəcək dövlət də Osmanlı dövləti idi". Yəni belə bir şəraitdə bizim Şimali Azərbaycanın torpaqlarının Göyçaya qədər olan bir hissəsi Bakı Xalq Komissarları Soveti adı altında Stepan Şaumyanın başçılıq etdiyi "sovet hökuməti"nin əlində idi, digər torpaqları - İrəvan, Naxçıvan, Gəncə quberniyası isə Andronikin, Lalayanın və digər daşnak-rus birləşmələrinin, Çar Rusiyası tərəfindən silahlandırılmış hərbi qüvvələrin nəzarəti altında idi. Yəni həmin şərait çox mürəkkəb bir şərait idi. Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyini Tiflisdə elan etmişdi, təxminən iki həftədən sonra Gəncəyə köçdü. Faktiki olaraq, dediyim kimi, Azərbaycan Cümhuriyyətinin heç bir hərbi və polis qüvvəsi yox idi. Nuru paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusunun 5-6 min əsgəri isə yalnız iyunun ortalarında Gəncəyə gəlib çıxa bildilər, qalanları sonra gəldilər. Nuru paşa gələnə qədər artıq İrəvan Milli Şura tərəfindən Ermənistana, daha doğrusu, Ararat Respublikasına güzəştə gedilib. Fətəli xan Xoylu da, başqaları da öz çıxışlarında dəfələrlə deyiblər ki, çarəsizlikdən, ancaq müəyyən şərtlər altında İrəvanın Ararat Respublikasının paytaxtı kimi tanınmasına və eyni zamanda İrəvan dairəsinin təxminən 9 min kvadratkilometrində Ararat Respublikası yaradılmasına razılıq verilib. Söhbət ondan gedir ki, o dövrdə Ararat Respublikasının İrəvan dairəsinə aid olan 9 min kvadratkilometr hesabına yaradılmasının səbəbi Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin heç bir real gücünün olmaması idi".

F.Ələkbərli vurğuladı ki, yalnız 1918-ci il iyunun 4-də Osmanlı hökuməti, Vəhab paşa ilə Məhəmməd Əmin Rəsulzadə (Milli Şuranın sədri) və Məmmədhəsən Hacinski (yeni qurulmuş ilk Cümhuriyyət hökumətində Xarici İşlər naziri vəzifəsini yerinə yetirirdi) arasında gedən danışıqlardan sonra Nuru paşa Azərbaycana gəldi, buna qədər isə artıq İrəvanın məsələsi həll edilmişdi. "Erməni Milli Şurasının da əlindəki "əsas" o idi ki, o zaman Gümrü (Aleksandropol) və onun ətrafı Osmanlı qüvvələrinin nəzarəti altında idi. Onlar da bunu bəhanə gətirdilər ki, bizim paytaxtımız yoxdur, biz harada müstəqilliyimizi elan edək? Onlar bu məsələni Azərbaycan Milli Şurası qarşısında qaldırmışdılar. Fətəli xan Xoylunun sədrliyi ilə Milli Şuranın ilk, xüsusən də ikinci toplantısında (Milli Şuranın nə birinci, nə də ikinci iclasında M.Ə.Rəsulzadə iştirak etməyib) İrəvanın yeni yaradılan Ararat Respublikasının paytaxtı kimi tanınması və 9 min kvadratkilometr ərazisi kimi qəbul edilməsi barədə qərar qəbul edildi. Azərbaycan Milli Şurası Ermənistan Milli Şurası qarşında şərt qoymuşdu ki, ermənilər Naxçıvana və Qarabağa olan iddialarından əl çəkməlidirlər, əl çəkməsələr, İrəvanın yeni yaradılan Ararat Respublikasına güzəştə də qüvvəsindən düşəcək. Yəni torpaqlarımızın, xüsusən də İrəvanın və ətrafının ermənilərə güzəştə gedilməsi o dövrün real şərtləri çərçivəsində baş verib".

AXC dövründə Azərbaycan və Ermənistan arasında müharibələr baş verib və Azərbaycan torpaqları itkiyə məruz qalıb. AXC dövründə Ermənistanın ərazisinin 9 min kvadratkilometr olduğunu deyən F.Ələkbərlinin sözlərinə görə, Azərbaycanın həm dövrdə ərazisi 114 min kvadratkilometr idi. "27 aprel işğalından sonra proseslər bir qədər fərqli məcraya yönəldi. Xüsusən də 1920-ci il noyabrın 30-da Ermənistan SSR-in yaradılmasından sonra, çox təəssüflər olsun ki, biz Azərbaycan torpaqlarının bir hissəsinin itirilməsi ilə qarşılaşırıq..."

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Qafqaz İslam Ordusunun komandanı Nuru paşaya Bakıda abidə ucaldılması məsələsinin aktual olduğu bir dövrdə onun Göyçayda hərbi qərargahının olduğu evin dağıdıldığı haqqında məlumatlar yayılıb.**

# Əfsanəvi Nuru Paşanın Göyçaydakı abidəsi kimin hədəfinə gəlib...

## *Faiq Ələkbərli: "Bu məsələyə Prezidentin müdaxiləsi olmasa, bəzi məmurlar və antimilli ünsürlər daha da dərinə gedəcəklər"*









*"...Qafqaz İslam Ordusuna, Azərbaycan Xalq Cümhuriyyətinə, xalqımıza qarşı böyük haqsızlıqdır"*

Böyük bir tarixi hadisəyə şahidlik edən bu evin hansısa işbaz(lar) tərəfindən mənimsənilməsi, şəxsi əmlaka çevrilməsi yolverilməz olsa da, təəssüf ki, milli təəssübkeşlikdən uzaq olan şəxs(lər) buna rəvac verirlər.

Məlumdur ki, Bakının daşnak erməni-rus hərbi birləşmələrindən təmizlənməsində, azad edilməsində, Azərbaycanın bölgələrinin daşnak zülmündən xilas olunmasında qəhrəman Nuru paşanın və onun əsgərlərinin misilsiz rolu olub. Gizlin deyil ki, Nuru paşanın Göyçaydakı bu qərargahında döyüş planları qurulub, erməni daşnakların qovulması üçün hərbi taktikalar hazırlanıb, Azərbaycanın müdafiəsi təşkil edilib. Qərargahda sənədlər, raportlar var. Yeni tarix üçün çox əhəmiyyətli, qiymətli faktlar mövcuddur. Tarixçilər qeyd edirlər ki, qərargah olan bu bina əsaslı şəkildə təmir-bərpa edilməli, muzeyə, ziyarət yerinə çevrilməli olduğu halda, hansısa işbaz tərəfindən tarixin arxivinə qovuşmaq üzrədir.

MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi İdarə Heyətinin sədri Fariz Xəlilli "Bakı-Xəbər"ə bildirib ki, bir iş adamı tərəfindən alınan abidənin sökülməsinə başlanıb: "Çox təəssüf edirəm ki, belə bir hal baş verir. Bu tarixi abidənin qorunması üçün addımlar atılmasını xahiş edirəm".

Mətbuatın yazdığına görə, Göyçay Rayon İcra Hakimiyyəti yanında komissiyanın qərarı ilə həmin binanın qəzalı olması qərarı verilib. Mənzil-istismar sahəsindən isə bildirilib ki, 2018-ci ilə qədər bina idarənin balansında olub. Sonra yerli idarənin balansından çıxarılıb, sahibkarlara satılıb. Binanın əsas yaşayış yerində isə hələ ki, heç bir iş görülməyib, çayxana kimi istifadə edilir.

Bu qərargah tarixi abidə kimi qorunmalı olduğu halda, bəzi yarıtmaz məmurların əlində alqı-satqı predmetinə çevrilib. Bu isə adamda yalnız təəssüf hissi yaradır.

Tarixçi-alim Dilavər Əzimli mətbuata bildirib ki, bu cür məsələlər daim gündəmə gəlsə də, hələ haraylara fikir verən yoxdur: "Bu sahələrə cavabdeh olan şəxslər və qurumlar millətin tarixini oxuyurlarmı? İnanın ki, oxumurlar. Oxusaydılar, bu cür biganəliyin şahidi olmazdıq. Onları daha çox postmodernizm və multikultural dəyərlər maraqlandırır. Rayonlara gedəndə nə qədər xarabaya qalmış abidə, dağılıb, viran qalmış bəy evləri ilə rastlaşıram. Onlardan biri də Nuru paşanın Göyçaydakı qərargahı, Sadıq bəy və Həzrət bəy Ağababayevların evidir.

SSRİ dönəmini başa düşürdük. Hələ yaxşı ki, sovet vaxtı bu evləri qorudular və tamamilə silib-atmadılar.

Narahatlıq doğuran odur ki, müstəqillik vaxtında bu cür tarixi abidələr dağılıb yox olmaq təhlükəsi ilə üz-üzə qalıb. Görəsən, həmin rayonların məmurları utanır, xəcalət çəkirlərmi?

Gərək hər məsələyə birbaşa ölkə başçısı reaksiya versin, sonra qurumlar işə başlasın? Nuru paşaya biganəlik tariximizə, millətin ruhuna xəyanətdir" - deyə bildirib.

Məlumdur ki, ermənilərin 1918-ci ildə azərbaycanlılara qarşı törətdikləri soyqırım Göyçaydan da yan keçməyib. Rayonun Qarabaqqal kəndində bir həftə müddətində aramsız döyüşlər gedib. Nuru paşanın komandanlığı altında vuruşan Osman Dədəlioğlu həmin döyüşlərdə yaralandığı üçün bir müddət Azərbaycanda qalıb müalicə olunub.

Sonra sərhədlər bağlandığından, Türkiyəyə qayıda bilməyən Osman Dədəlioğlu Göyçayın Cəyirli kəndində qalaraq burada yaşamalı olub.

Burada ailə quran türk əsgərinin hazırda iki qızı və nəvələri Göyçayda yaşayır. Osman Dədəlioğlunun nəvəsi Taleh Cəbrayılov xatirələrini danışıb. "Osmanlı Hərbiyyə naziri Ənvər paşanın əmri ilə 1918-ci ilin iyun ayında Qafqaz İslam Ordusu Nuru Killigil, yəni Nuru paşa və Xəlil paşanın komandanlığı altında Azərbaycana göndərilir. Nuru Killigil həmin orduya komandan təyin olunur. Bir müddət Gəncədə Azərbaycan Ordusunun təşkilatlanması ilə məşğul olan Nuru paşa Göyçay ətrafında bolşevik-daşnak qüvvələrini məğlubiyyətə uğradır.

Qələbəsini əks-hücumla davam etdirən Qafqaz İslam Ordusunun irəliləyişinin qarşısını almaq üçün ingilislər Bakıya qüvvə göndərirlər. Azərbaycanın daxilindən, yerli əhalidən böyük dəstək alan ordu ingilis qüvvələrini də Bakı ətrafında məğlub edir". Bu fikirlər də mətbuatda yer alıb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarixçi-alim, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli baş verənləri təəssüflə qarşılayır: "Çox təəssüflər olsun ki, belə bir hadisə baş verib. Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın Göyçayda 1918-ci ilin yayında qurduğu qərargaha bu cür münasibət qəbuledilməzdir. Nuru paşanın qərargahının dağıdılması, yaxud onun hansısa bir şəxsə satılaraq başqa məqsədlərlə istifadə edilməsi hər bir Azərbaycan vətəndaşını narahat etməlidir. Mən Nuru paşanın qərargahı olan evi görmüşəm. Əslində, Nuru paşanın qərargahı yerləşən evə bu cür mənfi münasibət, bütövlükdə, Qafqaz İslam Ordusuna, Azərbaycan Xalq Cümhuriyyətinə, xalqımıza qarşı böyük haqsızlıqdır. O dövrdə Azərbaycanı erməni daşnaklarının və rus bolşeviklərinin hərbi birləşmələrindən təmizləyən Nuru paşanın ruhuna edilən bu hörmətsizlik Azərbaycan xalqına göstərilən sayğısızlıqdır. Hesab edirəm ki, bu, Azərbaycan dövlətinin içində yuva qurmuş anti-Azərbaycan, antitürk ünsürlərin əməlidir. Bu qüvvələr hər fürsətdə Azərbaycan Xalq Cümhuriyyətini, Qafqaz İslam Ordusunu, Nuru paşanı, xalqımızın tarixini, milli-mənəvi dəyərlərini kölgədə qoymaq istəyirlər".

F.Ələkbərli qeyd etdi ki, vaxtilə Azərbaycanı işğal edən XI Qırmızı Orduya, "26 Bakı komissarına" abidə ucaldırdıq, amma bu gün biz başda Məhəmməd Əmin Rəsulzadə olmaqla Cümhuriyyətin liderlərinə, onun qurucularına, Qafqaz İslam Ordusunun komandanı Nuru paşaya və digərlərinə layiq olduqları bir abidə ucalda bilmirik. "Üstəlik, onların izlərini silməyə çalışanlar tapılır. Nuru paşanın və Qafqaz İslam Ordusunun izini silməyə cəhd göstərənlər onların əməyini də silmək istəyirlər.

**Buna cəhd edən qüvvələrin bu hərəkətlərini xalq olaraq, dövlət olaraq kəskin pisləməliyik. Hesab edirəm ki, 1918-ci ildə Nuru paşanın Göyçaydakı qərargahının yerləşdiyi evin başına gətirilən bu faciələr cavabsız qalmamlı, bunu törədənlər layiq olduqları cəzanı almalıdırlar.**

Fikrimcə, ölkə başçısı İlham Əliyev bu həssas məsələni də nəzarətə götürəcək və tez bir zamanda qərargahın bərpasına nail olacağıq. Bu məsələyə Prezidentin müdaxiləsi olmasa, bəzi məmurlar və antimilli ünsürlər daha da dərinə gedəcəklər" - deyə bildirən F.Ələkbərli hesab edir ki, Nuru paşanın qərargahını qəzalı vəziyyətə salanlar, oradan biznes məqsədilə istifadə edən adamlar hüquqi müstəvidə cəzalandırılmalıdırlar.

*İradə SARIYEVA*

# Maliyyə-bank sektorumuzda daha bir "baş-ayaq" proses - əməkhaqqı kartları artır, kredit kartları azalır, həm də əhali əmanətlərinin artdığı şəraitdə...

**Azərbaycan Mərkəzi Bankının məlumatına görə, 2019-cu ildə ölkədə əməkhaqqı kartlarının sayı 276 min ədəd artıb, kredit kartlarının sayı isə 63 min ədəd azalıb. 2019-cu ilin sonunda Azərbaycanda cəmi ödəniş kartlarının sayı 7 milyon 266 min ədəd təşkil edib.**

*"Kredit kartlarında azalma valyuta depozitlərində müşahidə edilir"*

***Natiq Cəfərli:*** *"Valyuta depozitlərinə bağlı olan kredit kartlarının ləğv edilməsi, dövriyyədən çıxarılması..."*



Maraqlıdır, banklarda əmanətlərin və istehlak kreditlərinin həcminin artdığı ərəfədə kredit kartlarının sayının azalması nə ilə bağlıdır?

İqtisadçı-ekspert Natiq Cəfərli bizimlə söhbətində bildirdi ki, azalma valyuta depozitlərində müşahidə edilir və bu azalmaya əsas səbəb kredit kartlarının ləğv edilməsi, dövriyyədən çıxarılmasıdır: "Əslində, Mərkəzi Bankın özünün bununla bağlı bir analizi olmalı idi. Banklardan aldığı məlumatlar əsasında bu analizi etsəydi, ona uyğun da müəyyən fikirlərin bildirilməsi mümkün olardı. Təəssüf ki, Mərkəzi Bankın açıqlamasında ancaq rəqəmsal olaraq göstərilir. Bunun səbəbləri ilə bağlı isə analizi görmürük, lakin bu vacib məsələdir. Çünki banklardan alınan məlumatların toplanması problemin çözümü üçün əsas məlumat bazası təşkil edir.

Mənim ehtimallarıma görə, Azərbaycanda bank sektorunda və manat depozitlərində ciddi azalma yoxdur. Yeganə azalma valyuta depozitlərində olub. Valyuta depozitlərinə bağlı olan kredit kartlarının ləğv edilməsi, dövriyyədən çıxarılması müəyyən azalmaya səbəb olub. Çünki valyuta kreditlərinin faizi kifayət qədər aşağı salınıb. Valyuta depozitlərində illik ortalama 1,5 və 2 faiz civarındadır. Bu da vətəndaşlara sərf etmir. Yəni 10 min dollarlıq depozitə ildə cəmi 150-180 dollar almaq insanlara sərf etmir və bu risqə getmək istəmirlər. Çox zaman bunun alternativi olaraq yatırım mənbələri axtarırlar".

Həmsöhbətimiz onu da əlavə etdi ki, bu dövr ərzində azərbaycanlıların Türkiyə və Gürcüstandan daşınmaz əmlak alışı artıb.

Ola bilər ki, ölkəmizdəki depozitlərin bir qismi qonşu ölkələrdə daşınmaz əmlak bazarına yatırılır. Çünki orada gəlirlilik yüksəkdir. Həm Gürcüstanda, həm də Türkiyədə daşınmaz əmlakın gəlirliliyi illik olaraq təxminən 6 və 8 faizarası dəyişir. Bu, depozitdən daha sərfəlidir. Yəni yeganə ehtimal valyuta depozitlərinin azalması və buna bağlı olan kredit kartlarının dövriyyədən çıxması ola bilər.

Ekspert hesab edir ki, kredit kartlarının sayının azalması çox ciddi şəkildə deyil.

*Günel CƏLİLOVA*

# Özəl bankların "cinayətkar" mövqeyi nəticəsində real sektorumuz xarici bankların əlinə keçə bilər

**Ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir.**

*"Dünyanın inkişaf etmiş ölkə banklarının kredit verərkən müəyyən tələbləri mövcuddur, təəssüf ki, Azərbaycan sahibkarları..."*

***Fuad İbrahimli:*** *"İnkişaf etmiş ölkələrin bankları ölkəmizə gələrsə, o zaman kredit verilişində dəyişiklik ola bilər"*



Azərbaycanda özəl sektorun, azad sahibkarlığın inkişafı prioritet məsələlərdən olsa da, bir sıra amillər var ki, bunun qarşında əngəl olaraq qalmaqdadır. Danılmaz faktdır ki, ölkəmizdə azad sahibkarlığın inkişafının qarşısını alan əsas məsələlərdən biri də bank sektorunun bu sahəni dəstəkləməməsidir.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda bu problemə də toxunub.

Maraqlıdır, real sektorun inkişaf etməsi üçün xarici bankların ölkəmizə cəlb edilməsi məqsədəuyğundurmu? Bunun üçün ölkəmizdə lazımi şərait varmı?

İqtisadçı-ekspert Fuad İbrahimli bizimlə söhbətində bildirdi ki, Azərbaycanda xarici kapitallı bir neçə bank fəaliyyət göstərir: "Azərbaycanda, hətta 100 faiz kapitallı və Avropanın tanınmış banklarının səhmdarı olduğu "AccessBank" fəaliyyət göstərir. Həmçinin, "Bank VTB", Türkiyənin "Yapı Kredi Bank", "Ziraat Bank"ları da ölkəmizdə fəaliyyət göstərir. Ancaq onu da nəzərə almaq lazımdır ki, xarici bankların yerli banklara nisbətən faizləri yüksəkdir. Hazırda Azərbaycan bankları 10-11-12-13 faizlə biznes kreditləri təklif edirlər. Belə bir fikir var ki, inkişaf etmiş ölkələrin bankları ölkəmizə gələrsə, o zaman kredit verilişində dəyişiklik ola bilər. ABŞ və Avropanın hər hansı bir bankı ölkəmizə gələrsə, onlar kapitalı dollarla gətirəcək, amma krediti manatla verəcəklər. O zaman kurs fərqini də nəzərə alsaq, bu kreditin faiz dərəcəsi heç də 10 faizdən aşağı olmayacaq. Həmin banklar dollarla kredit vermiş olarsa, o zaman da ciddi fərq olmayacaq. Çünki Azərbaycan bankları dollarla kreditləri 5-6 faizlə verirlər".

Həmsöhbətimiz onu da əlavə etdi ki, dünyanın inkişaf etmiş ölkə banklarının kredit verərkən müəyyən tələbləri mövcuddur. Təəssüf ki, Azərbaycan sahibkarları 90 faiz həmin tələbləri ödəmək gücündə deyillər: "Onların hesabatlılıq, audit, biznes-planla bağlı o qədər ciddi tələbləri var ki, bizim iş adamları onlara cavab verməyəcəklər. Mümkün deyil ki, aşağı faizlə kredit alasan və həmin tələbləri yerinə yetirməyəsən. İş adamları tələblərə cavab verməyərək bankdan vəsait alacağı təqdirdə isə risq amili artır.

**Risq artdığı üçün isə kredit faizi də artacaq. Doğrudur, onlarda xidmətlərin səviyyəsi yüksək, komission xərclər aşağı, rəqabət qabiliyyətləri bizim banklarla müqayisədə yüksəkdir, amma düşünürüksə onlar gəlib Azərbaycan iqtisadiyyatına aşağı faizlə kreditlər verəcəklər, bu baş verməyəcək. Bizdə biznes kreditləri 20-25 faiz olsaydı, onda bu barədə düşünmək olardı".**

*Günel CƏLİLOVA*

**"Qarabağ hərəkatı birinci mərhələdir. Artsax Ermənistandır, nöqtə. Naxçıvan, Gəncə və Qərbi Ermənistan Ermənistandır".**
**Leonid Azqaldyan (1942-1992), hay-daşnak quldurlarının Qarabağın dağlıq hissəsində 1988-1992-ci illərdə fəaliyyət göstərmiş "Müstəqil Ordu" terrorçu birləşməsinin komandiri.**

# Hay kilsə və daşnak şüurunda (sürüsündə) müsəlman-türk qisasçılığının ictimai-sosial və hərbi-siyasi amilləri

Beynəlxalq hay kilsə şəbəkəsinin himayəsində olan quldur-terrorçu hərbi-siyasi dəstələrinin Qərbi Azərbaycanda və Qarabağın dağlıq ərazilərində (eləcə də Bütöv Azərbaycan hüdudlarında) yuvalanmış hissələrinin tənzimlənən fəaliyyətində yerli, kökənli müsəlman-türk əhalisinə qarşı davamlı düşmənçilik-qisasçılıq siyasəti getdikcə güclənməkdədir. Olmayan dövlətləri səviyyəsində hərbiləşmiş və siyasiləşmiş bu daşnak-terrorçu kəsimin şüur-düşüncə və həyat tərzi dövlətimizə və xalqımıza qarşı qisasçılıq hissindən mayalandığından, XX əsrin ilk və son onillikləri xüsusilə qanlı-qadalı, faciəvi keçib.

1905-1906-cı illərdə Cənubi Azərbaycanın Təbriz, Marağa, Ərdəbil, Şimali Azərbaycanda Naxçıvan, Şuşa, Gəncə şəhərlərində, 1915-1920-ci illərdə ölkəmizin hər yerində, 1988-1994-cü illərdə Qərbi Azərbaycanda, Qarabağın dağlıq hissəsində, Bakı, Sumqayıt, Gəncə şəhərlərində hay kilsə-daşnak quldurlarının rus hərbi hissələri ilə birləşərək (həmişə olduğu kimi beynəlxalq güclərdən dəstək alaraq) xalqımıza qarşı törətdikləri kütləvi qətliam-soyqırım faciələri məhz həmin qisasçılıq siyasətinin ictimai-sosial və hərbi-siyasi (xüsusilə Rusiya, İsrail və Livan hərbi təcrübəsini ümumiləşdirərək) amilləri ilə bağlı olub. Hay kilsəsinin beynəlxalq şəbəkəsi gücləndikcə bu düşmənçilik, qisasçılıq siyasəti də yeni nəfəs almaqdadır.

...Cənubi Azərbaycanda "Surb Tadevos kilsəsi"ni Təbriz şəhərində 1814-cü ildə vəliəhd Abbas Mirzə Fətəli şah oğlu Qacar (1789-1833) tikdirib, bu kilsə 1946-cı ildə yenidən bərpa edilib və 1954-cü ildən dünyanın hər yerindən bu kilsəyə hay axını davam edir.

Tarixi faktlar həm də göstərir ki, hay kilsəsinin (kütləsinin) riyakarlığı bu əski qisasçılıq-düşmənçilik fəaliyyətlərini pərdələməyə, ona saxta zəmin yaratmağa yönəldildiyi kimi, eləcə də bəşəri müstəvidə yanlış məzmunda təşviq və təbliğ etmələri üçün əsas hesab edilir. Hay kilsəsi və daşnak ünsürlərinin şüurunda bu qisasçılığın dərin ictimai-sosial kökləri (olmayan dövlətləri üçün ərazi zəbt etmək, yerli əhalini yox etmək niyyəti ilə) ilk növbədə onların irsi-gen daşıyıcılarının düşmənçilik hüseyrələrindən mayalanır.

XX əsr boyunca (baxmayaraq ki, başqa ictimai-siyasi quruluş daxilində idi) bu qisasçılıq hissinin güclənməsinin ictimai-sosial amilləri Şərqi Azərbaycanda qabarıq hiss edilməsə də, Qərbi Azərbaycanda və Qarabağda bu aydın ifadə olunub hay kilsəsinin və kütləsinin fəaliyyətində.

Bu fəaliyyətə rəvac verən amillərdən biri də cinayət-terror yuvasına çevirlmiş hay kilsəsinin ölkə rəhbərliyinə təsiretmə qüvvəsi kimi çıxış etməsi olub. Belə ki, 1982-ci ildə SSRİ hakimiyyətinə rəhbərlik edən L.Brejnev öldükdə Qərbi Azərbaycanda və Qarabağda yaşayan haylar bayram ediblər və intizarla M.Qorbaçovun gəlişini gözləyiblər. Bu hal 1983-cü ildə Y.Andropovun vəfatında da təkrar olunub, yalnız 1985-ci ilin mart ayında onlar qanlı başın və əməlin yiyəsi olan M.Qorbaçovun ölkə rəhbəri seçilməsini sevinclə qarşılayaraq kütləvi şadyanalıq ediblər. Həmin vaxt Qərbi Azərbaycanın Qacaran şəhərindən olan Aykaz Arutunyan ailəlikcə bu xəbəri eşitdikdən sonra Zəngilan şəhərində yığıncaq keçirərək bu hadisəni təntənəli şəkildə qeyd edib. Və fərəhlə bildirirdilər ki, hay mənşəli alim Artyom Əlixanyan (1908-1978) lazer şüası ilə işləyən silah ixtira edib, bu bizim üçün bu çox vacib qurğudur....

Bu cür tarixi olaylar (hələ yalnız yaddaşlarda saxlanılan xatirələr işığında) 1990-cı ilin 19-20 yanvar və 1992-ci ilin 26 fevral faciələrinə gedən yolda siyasiləşmiş və hərbiləşmiş bu düşmən kəsiminin müsəlman-türk dünyasına qarşı nifrətinin bariz nümunəsidir.

...1978-1988-ci illərdə Ermənistan SSR



Dövlət Təhlükəsizlik Komitəsinin sədri işləyən general-leytnant Marius Aramoviç Yüzbaşyan (1924-1993) yığıncaqların birində müxtəlif millətlərdən olan iştirakçılara görə və hayların tələbini nəzərə almayaraq rus dilində çıxış edir - iki gün keçməmiş... onu işdən azad edirlər.

1987-1988-ci illərdə SSRİ EA-nın akademiki, Ermənistan SSR EA-nın prezidenti V.A. Ambartsumyanın (1908-1996) Basarkeçər nahiyəsinə gəlişindən, müzakirəməşvərətlərdən sonra silahlı hay-daşnak ünsürlərinin fəallığı daha da artdı.

...Qərbi Azərbaycanın Dağ Borçalı mahalında Abaran nahiyəsinin Yağdan kəndində 400-ə qədər yunan əsilli ailə yaşayırdı. 1988-1990-cı illərdə hay kilsəsi onların da silahlanaraq müsəlman-türk əhalisinə qarşı vuruşmasını tələb edir, imtina cavabından sonra bu ailələrin hamısı Yunanıstana köçürülür, kənddəki "Yunan kilsəsi"ni isə haylar "özününküləşdirirlər". Hətta 70 yaşlı Zina Nikolayevna Amirova da ağır işgəncələrlə qətlə yetirilir.

...Cəbrayıl rayonunun Araz çayı boyunca yerləşən və digər kəndlərini əhatə edən təsərrüfatların (Soltanlı kəndinin S.Vurğun adına kolxozu, Şükürbəyli kəndi, "26 Bakı komissarı" kolxozu, Qışlaq kəndinin C.Cabbarlı adına kolxozu, Yuxarı Məzrə kəndinin "Komintern" kolxozu...) heyvandarları yaylaq dövrünü Qarabağ dağlıq yaylasının Qərbi Azərbaycan ərazisindəki (əsasən Gorus və Qafan nahiyələrində) "Göbək daş", "Üçtəpə", "Kültəpə" dağlarındakı yay otlaq sahələrində keçirirdilər. 1971-ci ilin sentyabr-oktyabr aylarında "Dəvəboynu" və "Bayraməli" yay otlağından geri qayıdan tərəkəmə ailələri Gorus şəhəri yaxınlığında qəzaya uğrayır, ölümcül vəziyyətdə olmasalar da yaralıları hay-daşnak həkimlər işləyən şəhər xəstəxanasına yerləşdirirlər. Bir neçə gündən sonra onların hamısı ölür, sən dəmə düşmənlər hamısının (hətta bir ailənin üç üzvü olmaqla) qanını çəkibmiş...

...Qərbi Azərbaycanın Dərələyəz mahalında Şahdağ silsiləsinin qərb ətəklərində, 2100 m yüksəklikdə, Arpaçay çayının yuxarı axarlarında yerləşən İstisu (əski adı Quşçu olub, 1961-ci ildən kurort-müalicəvi şəhərdir) nahiyəsində yaşayan bir hay ailəsi 1980-ci illərin əvvəllərində meyidlərini aparıb Naxçıvan şəhər qəbirstanlığında basdırır ki, "Naxçıvan bizim əzəli ocağımızdır".

1970-ci ildə Qərbi Azərbaycanın Basarkeçər Rayon Partiya Komitəsinin I katibi Nurcanyan adlı daşnak təyin edilir. Bir dəfə o, "Göyçə çuxuru"nda dağlıq-qayalıqlar arsında yerləşən Qoşabulaq kəndinə gəlir və yaxınlıqdakı yüksəklikdən ətrafı seyr etdikdən sonra üzünü yanındakılara tutub deyir: "Yaxşı kənddir, səfalı, mənzərəli yerləri var, lap Soçi şəhərinə oxşayır. Heyif ki, burada türklər yaşayır...

Keçən əsrin 70-ci illərində ermənilər Qafan rayonu ərazisindən Oxçuşayı hövzəsinə, eləcə də Araz çayının yatağını keçməklə Cənubi Azərbaycana uzanan yeraltı keçidlər inşa etmişdilər.

Bakı-Qafan qatarı Mincivan dəmiryolu stansiyasına çatmamış Vəliqulubəyli kəndindən sağa dönüb Zəngilan şəhərindən keçib gedirdi. Haylar həmin qatara müsəlman-türk əhlinin minməsinə icazə vermirdi.

...1970-ci illərdə Dəvəçi rayonunun Gilvar kənd orta məktəbində rus dili və ədəbiyyatı müəllimi işləyən Emma Xaçaturova dərsə başlamazdan əvvəl həmişə uşaqlara xatırladırmış ki, yadınızdan çıxarmayın, Türklər bizim düşmənimizdir.

Ümumiyyətlə, Qərbi Azərbaycanda yaşayan haylar orta məktəblərin bütün fənn dərsliklərinin əvvəlində saxta "Böyük Ermənistan"ın xəritəsini və 5 vərəqlik yazılı məlumat çap edir, onu da tədris edirdilər.

Göründüyü kimi, tarixi keçmişimizin uzaq olmayan faciəvi səhifələri kimi yalnız 20 yanvar və 26 fevral hadisələrinə deyil, bütövlükdə əzəli Vətən torpaqlarımızın itirilməsinə uzanan yollarda düşmənə qarşı düşmənçiliyimizin olmaması itkilərimizə səbəb olub.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

**PS. Yazının hazırlanmasında Qərbi Azərbaycanın Basarkeçər rayonu, Qoşabulaq kənd sakini Şahmalı Qoşunəli oğlu Salmanovun (1949), Abaran rayonu, Yuxarı Körpülü kənd sakini Ayaz İsa oğlu Kərimovun (1950), Zəngilan rayonu, Malatkeşin kənd sakini Akif Əbil oğlu Həsənovun (1948), Cəbrayıl rayonu, Soltanlı kənd sakini Çapay Babaş oğlu Kazımovun (1962), Şabran rayonu, Pirəbədil kənd saknin Aprel Nəzər oğlu Məmmədovun (1957) məlumatlarından istifadə edilib.**

# BNA sədrinin dəqiq rəqəmləri - lakin hazırkı 25 min taksinin 16 mininin taleyi necə olacaq...

**"Bakıda təxmini olaraq 25 mindən çox qeyri-qanuni fəaliyyət göstərən taksi var. Bizim hesablamalarımıza görə, paytaxt üçün 8500 ədəd taksi fəaliyyəti lazımdır". Bunu Bakı Nəqliyyat Agentliyinin (BNA) İdarə Heyətinin sədri Vüsal Kərimli deyib.**

*"...səbəb ictimai nəqliyyatın düzgün qurulmaması, avtobusların sayının kifayət qədər olmamasıdır"*

BNA sədri əlavə edib ki, ilin ilk rübü iqtisadi baxımdan əsaslandırılmış tariflər hesablanacaq və aidiyyəti qurumlara göndəriləcək. Bununla bağlı işlər ilk 6 ay ərzində tamamlanacaq.

Maraqlıdır, taksi sayının azaldılması və yeni tariflər taksi qiymətlərinə necə təsir edəcək? Həmçinin, 25 min taksidən yalnız 8500 ədəd taksinin fəaliyyət göstərməsi yerdə qalan taksi sürücülərinin işsiz qalmasına səbəb ola bilərmi?

Məsələ ilə bağlı fikir bildirən sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, bu gün taksi fəaliyyəti ilə məşğul olanların sayı çoxdur. Ancaq bu o demək deyil ki, onların sayı azaldılmalıdır. Çünki taksidə çalışanların əksəriyyəti işi olmayan şəxslərdir. Taksi sayının azaldılması çoxlu sayda sürücünün işsiz qalmasına səbəb olacaq: "Onlar özlərinə kredit yolu ilə avtomobil alıb taksi kimi çalışırlar. Onu da deyim ki, taksi fəaliyyəti ilə qanunsuz məşğul olunması dünyanın bir çox ölkəsində var. Məsələn, Türkiyəni misal çəksək, rəsmi olaraq, İstanbul şəhərində 30 min taksi var. Bu sayın yarıdan çoxu qanunsuz fəaliyyət göstərən taksilərdir. Hətta İstanbulun Avropaya düşən hissəsində eyni nömrə ilə iki taksi fəaliyyət göstərir. Orada taksi böyük bir şəbəkənin əlində cəmləşib, dövlət belə ona müdaxilə edə bilmir. Onu da nəzərə almaq lazımdır ki, heç kim kefindən taksi sürmür. Nadir hallarda ola bilər ki, taksi sürücüsü bu işə məhz peşə kimi baxsın. Əksər hallarda iş tapa bilmirlər və bu işə əl atırlar. Buna görə bizim də onların qarşılarını kəsməyimiz bir o qədər düzgün olmaz. Bu qədər taksinin ərsəyə gəlməsinə səbəb ictimai nəqliyyatın düzgün qurulmaması, avtobusların sayının kifayət qədər olmamasıdır".

***İlqar Hüseynli:** "Taksi sayının azaldılması çoxlu sayda sürücünün işsiz qalmasına səbəb olacaq"*




Ekspert taksi xidmətlərinin vahid tarif ilə fəaliyyət göstərməsinə gəlincə, bildirdi ki, bu, beynəlxalq təcrübəyə əsaslanır: **"Gecə və gündüz tariflərini Azərbaycanda da tətbiq etmək lazımdır. Bu tariflər bizim üçün standart qiymət olacaq. Amma bunu necə müəyyənləşdirəcəyik? Taksometr varmı? Nəzərə almaq lazımdır ki, bütün taksilərdə taksometr yoxdur. Maraqlıdır, BNA bütün taksiləri taksometrlə təmin edə biləcəkmi? Taksilərdə vahid tarifin tətbiq olunmasının tərəfdarıyam".**

***Günel CƏLİLOVA***

# Sabunçu dairəsində yol hərəkətinin iflic edilməsinin konkret müqəssirləri var

**Axşam saatlarında Sabunçu dairəsində tıxac müşahidə edilir. Qeyd edək ki, Zabrat şosesinin Heydər Əliyev prospekti ilə kəsişən hissəsində (Sabunçu yol qovşağı) yerüstü piyada keçidi mövcuddur.**

*"Taksi sürücüləri bir neçə dəfə cərimələndikdən sonra..."*

Bundan başqa, dayanacaqla keçid arasında bir neçə yüz metr məsafə var. O vaxt dayanacağın yeri dəyişdirildi ki, avtomobillərin hərəkət intensivliyi azalmasın. Çünki pik saatlarda intensivlik azalan kimi tıxaclar yaranırdı.

İndi isə tıxacın yaranmasına səbəb taksilərin fəaliyyətidir. Problem ondadır ki, taksilərin avtobus dayanacaqlarında, avtobusların isə yolun ikinci və üçüncü zolaqlarında dayanması pik saatlarında tıxacların yaranmasına səbəb olur. Nəticədə avtobus və taksilərin dayanacağa yanaşması yoldakı nəqliyyat vasitələrinin hərəkət intensivliyini aşağı salır. Artıq neçə aydır taksi fəaliyyəti ilə məşğul olan şəxslər dayanacağa yaxın yolboyu avtomobillərini saxlayırlar. Bir sıra hallarda avtobusların saxlama yerlərində taksini saxlayırlar. Nəticədə avtobus sürücüləri məcbur olur yolun ikinci zolağında maşını saxlasınlar. Bu da axşam saatlarında ciddi tıxacın yaranmasına səbəb olur. Beləliklə, işdən yorğun gələn sərnişinlər yolda əlavə vaxt itirir. Demək olar ki, yol qovşağında hər gün oxşar problem hökm sürür.

Maraqlıdır, zaman-zaman mövcud olan bu problemi necə həll etmək olar?

Məsələyə münasibət bildirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənovun sözlərinə görə, nəinki Sabunçu dairəsində, şəhərin bir neçə yol qovşağında bu problem var: "Əhmədli", "20 Yanvar" metrostansiyaları yaxınlığında da analoji vəziyyət hökm sürür. Harda ki avtobus dayanacaqları var, ora taksilər tərəfindən zəbt olunub. Bu da yolverilməz haldır. Çünki dayanacaq zəbt olunursa, o zaman tıxacın yaranması qaçılmazdır. Bu zaman avtobuslar məcburdur ki, yolun ikinci zolağınada dayansınlar. Belə hal avtobus sürücüsü üçün inzibati xətadır. Sabunçu yol qovşağında yaranan belə vəziyyət sərnişinləri çox narahat edir. Bir ara Bakı Nəqliyyat Agentliyinin əməkdaşları orada hərəkəti tənzimləyirdilər.

***Azər Allahverənov:** "Çıxış yolunu orada müşahidə kameralarının quraşdırılmasında görürəm"*



Ancaq neçə vaxtdır sözügedən nəzarət yoxdur. Taksi sürücüləri də bundan istifadə edirlər. Əvvəl belə hallarla bağlı reydlər keçirilirdi və taksi sürücüləri cərimə olunurdular. İndi isə bu nəzərə çarpmır. Çıxış yolunu orada müşahidə kameralarının quraşdırılmasında görürəm. Belə olsa, o zaman taksi sürücüləri bundan çəkinər və dayanacağı zəbt etməzlər. Taksi sürücüləri bir neçə dəfə cərimələndikdən sonra hesab edirəm ki, problem həllini tapacaq".

***Vidadi ORDAHALLI***

# Milli Arxeologiya Fondu niyə tam formalaşa bilmir...

**Fariz Xəlilli:** *"Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeologiya fondu akademiyanın zirzəmisində yerləşir, heç bir standartlara uyğun olmayan şəkildə qorunur"*

**Zəngin maddi-mədəni irsə sahib olsaq da, çox təəssüf ki, muzey fondlarını nəzərə almasaq, ölkəmizdə arxeoloji fondun yaradılmasına elə də maraq göstərilmir. Bu, ələqədar qurumların bu sahəyə biganə münasibətinin təzahürüdür.**

*"Arxeoloji materialların yeganə xilas yolu Azərbaycanın vahid Milli Arxeologiya Fondunun yaradılmasıdır"*



Azərbaycanda Milli Arxeologiya Fondunun formalaşdırılması prosesi ləngiyir. Halbuki, illər əvvəl bu fondun yaradılması gündəmə gəlib, hətta onun üçün ayrıca bina ayrılacağı da nəzərdə tutulub. Lakin, bildiyimiz kimi, hələ də ölkəmizdə Milli Arxeologiya Fondu normal şəkildə qurulmayıb.

Onu da bildirək ki, bu gün Qarabağ arxeologiyasına aid arxeoloji materiallar baxımsızlıq ucbatından Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) zirzəmisində çürüməkdədir. Qarabağ arxeologiyasına aid qiymətli eksponatlara bu şəkildə münasibət, sözün açığı, insanda təəccüb və təəssüf doğurur. Erməni saxtakarlıq edib özünə qondarma tarix düzəldir, "arxeoloji nümunə" yaradır, biz isə olanımıza sahib çıxa bilmirik.

Çürüyən arxeoloji nümunələrə, eksponatlara sahib çıxıb onları vahid bir fondda toplaya bilmirik. "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin rəhbəri, maddi-mədəni irs üzrə ekspert, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda Milli Arxeologiya Fondunun formalaşdırılmasının böyük əhəmiyyəti var və o bununla bağlı ələqədar qurumlara müraciət də edib. "Azərbaycanda Arxeologiya Fondunun formalaşdırılması çox vacibdir. Mən bu fondun formalaşdırılmasına göstəriş verilməsi üçün Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə və Azərbaycan Milli Elmlər Akademiyasının

Prezidenti, akademik Ramiz Mehdiyevə məktubla müraciət etmişəm. Çünki arxeoloji materiallar dağıdılmış vəziyyətdədir, bu sahədə pərakəndəlik var və vahid data yoxdur. Məsələn, mənim investisiya proqramından gözlədiyim işlərdən biri məhz Milli Arxeologiya Fondunun formalaşdırılmasıdır. Bu çox vacibdir. Çünki arxeoloji materialların bu şəkildə pərakəndə halda olmasının qarşısı alınmalıdır. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeologiya fondu akademiyanın zirzəmisində yerləşir, heç bir standartlara uyğun olmayan şəkildə qorunur. Buna belə yanaşmaq olmaz. Yaxud Milli Azərbaycan Tarixi Muzeyinin arxeologiya fondu da muzeyin zirzəmisində yerləşir. Yeni materiallar, mədəni irs sərvətləri aidiyyəti yerlərdə qorunmurlar. Bu da həmin materialların aşınmasına, dağılmasına, məhv olmasına gətirib çıxarır. Arxeoloji materialların yeganə xilas yolu Azərbaycanın vahid Milli Arxeologiya Fondunun yaradılmasıdır".

Bu fondun investisiya proqramı çərçivəsində də yaratmağın tam mümkün olduğunu deyən F.Xəlillinin sözlərinə görə, fondun elektron bazası da yaradılmalıdır. Ekspert qeyd etdi ki, o, Dövlət İnvestisiya Fonduna Milli Azərbaycan Tarixi Muzeyinin arxeologiya fondunun vahid elektron bazasının yaradılması ilə bağlı üç il ardıcıl olaraq layihə göndərib, amma nəticəsi olmayıb

Qeyd edək ki, "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin rəhbəri F.Xəlillinin Milli Arxeologiya Fondunun yaradılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə ünvanladığı müraciətdə "Bizim təkliflərimizdən biri Milli Arxeologiya Fondunun yaradılmasıdır. Azərbaycanın vahid Milli Arxeologiya Fondu bu gün pərakəndə şəkildə ölkənin müxtəlif yerlərinə yayılmış, sənədləşdirilməmiş və uyğun şəraitdə qorunmayan bütün arxeoloji materialları həmin fondda milli sərvət kimi toplamaq, sənədləşdirmək, mühafizə etmək, sərgiləmək və məlumat bazasını hamıya əlçatan etmək vəzifəsini görəcəkdir. Milli Arxeologiya Fondunun yaradılması arxeologiya elmi sahəsində Arxeologiya və Etnoqrafiya İnstitutunun yaratdığı monopoliyanı da aradan qaldıra bilər.

**Dünya təcrübəsində olduğu kimi, AMEA digər institut, muzey, universitetlərə arxeoloji qazıntı aparmaq üçün vəkalətnamə vermə hüququnu özündə saxlamaqla elm sahəsində sağlam rəqabəti gücləndirəcək..." - deyə qeyd edilir.**

***İradə SARIYEVA***

# Metroda pulunu itirən şəhid ailəsini polis sevindirdi




**Bu günlərdə metronun "Gənclik" stansiyasında naməlum şəraitdə 307 manatını itirən Sevda Kərimova kömək üçün polisə üz tutub.**

Polis əməkdaşlarına müraciət edən şəhid ailəsini asayiş keşikçiləri təzliklə sevindirib. Belə ki, həmin stansiyada xidmət aparan polis kiçik serjantı Musa Sabirli təqribən saat 14:00 radələrində metronun girişində 307 manat tapması barədə Metropolitendə Polis Şöbəsinin rəhbərliyinə məlumat verib.

Elə həmin gün axşam saatlarında S.Kərimova rəhbərlik tərəfindən şöbəyə dəvət olunub və itirdiyi 307 manat ona qaytarılıb. Sevincini hər kəslə bölüşmək istəyən S.Kərimova asayiş keşikçilərinə təşəkkürünü ifadə edib.

№ 23 (4154) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

8-10 FEVRAL 2020-ci il

www.baki-xeber.com

# 2020-ci ilin yanvar ayı Avropa rekord dərəcədə isti keçib




**Avropanın "Kopernik" xidmətinin məlumatına görə, bu ilin yanvar ayı meteomüşahidələrin aparıldığı bütün dövr ərzində Avropada ən isti yanvar ayı olub.**

Statistikanın aparıldığı vaxtdan ən isti yanvar 2016-cı ildə qeydə alınıb. "AZƏRTAC" bildirir ki, bu ilin birinci ayında planetimizdə orta temperatur 2016-cı ilin yanvar ayı ilə müqayisədə 0,03 dərəcə, 1981-ci ildən 2010-cu ilə qədər dövr ərzində qeydə alınmış orta göstəricidən 3,1 dərəcə yüksək olub. Avstriya, Almaniya və İsveçrənin bəzi regionlarına yağan güclü yağışlardan sonra daşqınlar başlayıb. Avstriyanın Kössen şəhərində yağışlar bir gündən çox davam edib. Sonra kəskin şaxta düşüb. Yağış suları torpağa hopmağa macal tapmadığına görə yolları və evləri su basıb. Rumıniyada kənd təsərrüfatı yerləri və evlər daşqın təhlükəsi ilə üzləşib. Ötən həftə temperaturun yüksəlməsi səbəbindən mərkəzi dağlıq bölgələrdə buzlaqlar əriyərək çayların məcrasını basıb. Bolqarıstanda tamamilə başqa mənzərə - quraqlıq və qarsız qış müşahidə olunur. Ekspertlərin fikrincə, belə vəziyyət sonralar ölkə ərazisində ciddi quraqlığa gətirib çıxaracaq. İçməli su ehtiyatı isə onsuz da minimum miqdardadır. İsti qış Azərbaycan ərazisində də müşahidə olunur. Yanvar ayında Bakıda temperatur iqlim normasından 6 dərəcə yüksək olub. Qış fəsli artıq başa çatmaq üzrədir.

## Elan

Mehdiyev Fərhad Yusif oğlunun adına, Binəqədi rayonu ərazisində yerləşən torpaq sahəsinə Binəqədi Bələdiyyəsi tərəfindən 2004-cü ildə verilmiş 1284/1 saylı, 2009-cu ildə verilmiş 831, 832, 987 saylı və 2011-ci ildə verilmiş 646 saylı qərarlar itdiyi üçün etibarsız sayılır.

Mustafalı (Mustafayev) Xəqani Umud oğlunun adına, Binəqədi rayonu ərazisində yerləşən torpaq sahəsinə Binəqədi Bələdiyyəsi tərəfindən 2011-ci ildə verilmiş 768 saylı, 2009-cu ildə verilmiş 13 saylı qərarlar itdiyi üçün etibarsız sayılır.

Misirov Mobil Fərəc oğlunun adına, Binəqədi rayonu ərazisində yerləşən torpaq sahəsinə Binəqədi Bələdiyyəsi tərəfindən 2004-ci ildə verilmiş 1113 saylı qərar itdiyi üçün etibarsız sayılır.

Misirova Adilə Fərəc qızının adına, Binəqədi rayonu ərazisində yerləşən torpaq sahəsinə Binəqədi Bələdiyyəsi tərəfindən 2006-ci ildə verilmiş 554 saylı qərar itdiyi üçün etibarsız sayılır.

Nəbiyeva Səidə Seyid qızının adına, Binəqədi rayonu ərazisində yerləşən torpaq sahəsinə Binəqədi Bələdiyyəsi tərəfindən 2004-cü ildə verilmiş 1419 saylı qərar itdiyi üçün etibarsız sayılır.

Hüseynov Oktay Məhəmməd oğlunun adına, Binəqədi rayonu ərazisində yerləşən torpaq sahəsinə Binəqədi Bələdiyyəsi tərəfindən 2011-ci il tarixdə verilmiş 366 saylı qərar itdiyi üçün etibarsız sayılır.

İsgəndərov Oruc Mirzəli oğlunun adına, Binəqədi rayonu ərazisində yerləşən torpaq sahəsinə Binəqədi Bələdiyyəsi tərəfindən 2009-cu ildə verilmiş 712 saylı, 2006-cı ildə verilmiş 360 saylı qərarlar itdiyi üçün etibarsız sayılır.

## Xarici dilləri "Azercell"lə öyrən!

*"Azercell Telekom" MMC dünyaca məşhur "Busuu" tətbiqini abunəçilərinə xüsusi şərtlərlə təklif edir*

**Müasir texnologiyaların təqdim etdiyi sonsuz imkanları abunəçiləri üçün əlçatan etməyi hədəfləyən "Azercell Telekom" rəqəmsal məhsullar portfelini növbəti dəfə zənginləşdirir və xarici dilləri öyrənmək, dil biliklərini inkişaf etdirmək istəyən abunəçiləri üçün "Busuu" tətbiqini təqdim edir.**

Xarici dil öyrənmək üçün dünyanın 10 ən yaxşı mobil tətbiqi sırasında yer alan "Busuu"nun hazırda 90 milyondan artıq istifadəçisi var. "Busuu" virtual xarici dil müəllimi olaraq, eyni anda 12 dil (ingilis, rus, italiyan, alman, fransız, ispan, portuqal, Çin, yapon, türk, ərəb və polyak) öyrənmək, xüsusi proqramla hazırlanmış qrammatika, yazı, dinləmə və danışıq məşqlərinə qatılmaq, "Busuu" sosial şəbəkəsində yeni dostlar qazanıb, onlarla ünsiyyət quraraq dil biliklərini genişləndirmək və beynəlxalq "McGraw-Hill" sertifikatını əldə etmək imkanlarını bir arada cəmləyir. Xidmətin daha bir üstünlüyü də odur ki, qeydiyyatdan keçdikdən sonra hər bir tələbənin bilik səviyyəsi yoxlanır və o müvafiq dərs qrupuna təyin edilir.

Həm iOS, həm də Android əməliyyat sistemlərində çalışan "Busuu" tətbiqini "App Store" və ya "Play Store"dan yüklədikdən sonra 0.20 AZN ödəməklə günlük paketi və ya 3 AZN ödəməklə aylıq paketi aktiv etmək mümkündür. Xidmətə qoşulma qaydası çox sadədir: günlük paketə abunə olmaq üçün smartfonun ekranında *696#YES, aylıq paket üçün isə *969#yes komandasının yığılması kifayətdir.

"Azercell"lə "Busuu" artıq hər kəs üçün əlçatan oldu! Xarici dil biliklərinizi vaxtınıza qənaət edərək "Busuu" ilə təkmilləşdirin!

Xidmət haqqında ətraflı məlumat üçün: https://www.azercell.com/az/personal/services/partner_services/busuu/səhifəsinə daxil olun.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Hörmətli abunəçilər!

**"Azerfon" MMC ilə "BBTV Kommunikeyşn" MMC** arasında bağlanmış müvafiq agent müqaviləsinə xitam verildiyindən, 15.02.2020-ci il tarixindən abunəçilərlə radio-televiziya kanallarının yayımlanması xidmətlərinin göstərilməsinə dair bağlanmış abunə müqavilələrində "Azerfon" MMC-nin təqdim etdiyi bütün xidmətlər birbaşa "BBTV Kommunikeyşn" MMC tərəfindən göstəriləcək. Kanalların siyahısı və paketin qiyməti dəyişməz olaraq qalır. Xidmətin dəyərinin ödənilməsi zamanı "Nar TV" loqosu əvəzinə "BBTV" loqosunu seçməyinizi xahiş edirik.





**Qoç** - Diqqətli olun. Ünsiyyət çevrəsini ən zəruri əlaqələrlə məhdudlaşdırın. Yarımçıq işlər qəfil həllini tapa bilər. İndiki olaylar sürətlə inkişaf edən hadisələr silsiləsinin bir hissəsidir.



**Buğa** - Çox emosional və gərgin gün olacaq. Diqqətinizi işdən ayırmayın. Çətinliklərin dəf edilməsi ilə məşğul olun. Sevdiyiniz insanın və yaxınlarınızın hisslərini sınağa çəkməyin. Əks təqdirdə, səhvlərin fəsadlarını aradan qaldırmaq asan olmayacaq.



**Əkizlər** - Cari işlərlə məşğul olun. Anlaşma, razılaşma, danışıqlar, tərəfdaşlar və başqa maraqlı şəxslərlə fəal dialoq tələb edən məsələləri təxirə salın. Gələn siqnallar mümkün problemlərdən xəbər verir.



**Xərçəng** - Qüvvə və enerjinizə qənaət edin. Nəzərdə tutduğunuz bütün işləri görə bilməyəcəksiniz. Peşəkar fəaliyyətlə bağlı ambisiyaları arxa plana keçirin. Ailə üzvləri və yaxınlarınızın maraqları daha üstün olmalıdır.



**Şir** - Gərginlik daha da artır. Situasiya ağırlaşır, hisslər mürəkkəbləşir. Problemləri həll etməyin yollarını tapın, durumun ağırlaşmasına yol verməyin. Mübahisələr, həqiqət axtarışları ciddi ixtilaflara, münasibətlərin kəsilməsinə, əməkdaşlığın sərinləşməsinə səbəb ola bilər.



**Qız** - Çoxsaylı təəssüratlar və hisslər vəd edən gündür. Yaşananları təhlil edin, proseslərin məğzini anlamağa çalışın. Yaxın ətrafınızdakı insanlar yeni tapşırıqlar və öz problemləri ilə sizə təzyiq etməyə çalışırlar.



**Tərəzi** - Mürəkkəb problemin və ya çətin məsələnin həllinə başlamaq üçün əlverişli zamandır. Mühüm danışıqlar aparın, fəaliyyət planını hazırlayın, ən önəmli və ciddi məqsədə çatmaq üçün yola çıxın.



**Əqrəb** - Pis gün deyil. Qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün səy göstərin. Çoxsaylı işlərə başlamaq əvəzinə bir işi bitirin. Kommersiya fəaliyyətində uğur istisna deyil. Sərfəli anlaşmalara nail olmaq, yeni layihənin reallaşmasına başlamaq olar.



**Oxatan** - Qüvvənizi toplayın, fəal olun. Asan gün deyil. Xoşagəlməz təmayüllərin öhdəsindən gəlmək asan deyil. Sayıq olun, səhvlərə yol verməyin. Dostlar və ya müttəfiqlər sizə yardım etməyə hazırdırlar.



**Oğlaq** - Maliyyə məsələlərini həll etmək, alış-verişə çıxmaq məsləhət deyil. Qeyri-standart yanaşma, təxəyyül və çeviklik tələb edən işlərlə məşğul olmaq mümkündür. Yaxın ətrafınızdakı insanlarla münasibətlərə ciddi fikir verin.



**Dolça** - Qarışıq, amma məsuliyyətli gündür. Münasibətləri həddən ziyadə iradlar və tələblərlə korlamayın. Ünsiyyəti məhdudlaşdırın, ünsiyyəti və yazışmaları təxirə salın. Yarımçıq işləri tamamlayın, sabaha heç bir iş saxlamayın.



**Balıqlar** - Asan gün olmayacaq. Lakin bütün sədləri dəf edərək məqsədə çata bilərsiniz. Nailiyyətlər əldə etmək üçün ciddi səy göstərmək gərəkdir. Kiçik qələbələrə asanlıqla nail olacaqsınız.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyanın ilk kitabında nə yazılıb...

**Dünyanın ilk kitabı Çində tapılıb və bizim eranın 868-ci ilində yazılıb. "Teleqraf.com" xəbər verir ki, adı "Diamond Sutra" olan kitabın ingilis dilində mənası "Almaz" deməkdir. Tarixdə çap olunan ilk kitab Buddanın təlimlərindən ibarətdir.**

Bu məlumatlar Buddanın özündən eşidilərək yazılıb. Kitabı yazan isə onun müridlərindən biri Subhutidir. Yeddi səhifədən ibarət kitabın altı səhifəsi mətndən ibarətdir, bir səhifəsində isə Budda və onun müridlərinin rəsmləri yer alıb.

Kitab ağacdan hazırlanmış bir qəliblə çap olunub. Kitab 1900-cü ildə taoçu bir rahib tərəfindən Tunhuanqda Budda mağarasında tapılıb.

Kitabın yanında 1300 ədəd əlyazma olub. Kitabın son səhifəsində belə ifadə yer alıb: "868-ci il mayın 11-də hörmətli valideynlərinin xatirələrini yad etmək üçün Vanq Çiy tərəfindən nəşr olunub".

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.